RSSSMİ DÖVLSST QSSZETİ

# AZƏRBAYCAN

№ 86 (10106) 16 may 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QSSZETİN SSSASI 1918-Cİ İLDSS QOYULMUŞDUR






# Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir

## Azərbaycan bu istiqamətdə səylərini əsirgəməyəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün mayın 15-də bu ölkəyə işgüzar səfərə gedib.

Dövlət başçısı İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlərlə birlikdə Türküstan şəhərindəki "Hazret Sultan" Muzey-Qoruğu ilə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev və Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlər Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində iştirak ediblər.

Dövlət başçısı İlham Əliyev Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib.

2-3

# Bakı növbəti dəfə dünyanı bir araya gətirir

### WUF13 Azərbaycanın artan geosiyasi rolunun beynəlxalq etirafıdır




Ölkəmizin WUF13-ə evsahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun və artan geosiyasi rolunun göstəricisidir. Azərbaycan yalnız enerji və nəqliyyat mərkəzi kimi deyil, həm də beynəlxalq tədbirlərin uğurlu təşkilatçısı kimi tanınır. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də dövlətimizin urbanizasiya məsələlərinə verdiyi önəmi göstərir. Bakı müasir infrastrukturu, nəqliyyat imkanları, təhlükəsizlik mühiti, beynəlxalq təcrübəsi və multikultural atmosferi ilə forum üçün ideal məkan hesab olunur.

Miqyasına görə WUF13 iki il əvvəl Bakıda keçirilmiş COP29 konfransını xatırlatsa da, burada əsas diqqət şəhərsalma, memarlıq və dayanıqlı məskunlaşma məsələlərinə yönəlib. COP29 Azərbaycanın logistik hazırlığını, yüksək təhlükəsizlik standartlarını, diplomatik koordinasiya və qlobal əməkdaşlıq mexanizmlərini bütün dünyaya sübut etdi. WUF13 isə bu institusional təcrübənin məntiqi davamı kimi qəbul olunur. Üstəlik, budəfəki sessiya birbaşa insanların gündəlik problemlərinin praktiki həllinə yönəlir ki, bu da forumun əhəmiyyətini qat-qat artırır. O səbəbdən, WUF13-ün əhatə dairəsi paytaxt hüdudlarını aşaraq bütün respublikanı bürüyüb. Forum ərəfəsində ölkə ictimaiyyətinin mötəbər beynəlxalq tədbir barədə məlumatlandırılması məqsədilə Azərbaycanın müxtəlif şəhərlərində festivallar təşkil olunub. Festivallar ümumilikdə 9 şəhərdə 115 mindən çox insanı bir araya gətirib. Bu tədbirlər, sadəcə, maarifləndirmə xarakteri daşımır, ölkəmizin WUF13-ə nə qədər məsuliyyətlə yanaşdığını göstərir.

Forumun ilk günündə Yeni Şəhərsalma Proqramı ilə əlaqədar nazirlər səviyyəsində görüş təşkil olunacaq. Azərbaycanın sədrliyi altında keçiriləcək bu görüşdə hökumət nümayəndələri bir araya gələrək 2036-cı ilə qədər olan növbəti mərhələ üçün prioritetləri müzakirə edəcəklər. Nazirlərin görüşü ölkələrə təcrübə mübadiləsi aparmaq, mövcud boşluqları müəyyənləşdirmək və öhdəlikləri möhkəmləndirmək üçün platforma təqdim edəcək. Eyni zamanda görüş 2026-cı ildə BMT Baş Assambleyasında keçiriləcək yüksəksəviyyəli icmal ərəfəsində siyasi dinamikanın artırılmasına öz töhfəsini verəcək. Görüş sədrin xülasəsi sənədinin qəbulu ilə başa çatacaq.

Eyni zamanda WUF13 çərçivəsində "Urban Expo" sərgisi, beynəlxalq tərəfdaş tədbirləri, akademik sessiyalar, gənclər forumu və müxtəlif tematik müzakirələr keçiriləcək. Forumun mühüm xüsusiyyətlərindən biri də odur ki, burada yalnız problemlər deyil, konkret həllər təqdim olunur. Müxtəlif ölkələrin uğurlu təcrübələri paylaşılır, innovativ şəhər modelləri nümayiş etdirilir və yeni əməkdaşlıq platformaları yaradılır.

7

# Prezident İlham Əliyevin sosial media hesablarında Qazaxıstana işgüzar səfəri ilə bağlı videoçarx paylaşılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında dövlətimizin başçısının Qazaxıstan Respublikasına işgüzar səfəri ilə bağlı videoçarx paylaşılıb.

AZƏRTAC paylaşımı təqdim edir.



**https://video.azertag.az/site/video/315775**

# Mövcud reallıqlar fonunda Azərbaycanın postmüharibə siyasəti



Həqiqət bundan ibarətdir ki, Azərbaycan artıq yalnız müharibədə qələbə qazanmış dövlətə deyil, həm də bölgənin gələcək siyasi arxitekturasını müəyyən edən əsas aktora çevrilib.

Bölgənin gələcəyi naminə burada ilk növbədə "qalib dövlət" anlayışı ilə "yeni reallıqları müəyyən edən siyasi güc mərkəzi" anlayışı arasındakı ciddi fərqi izah etməyə çalışaq: tarixdə hərbi qələbə qazanan, lakin siyasi nəticələri idarə edə bilməyib üstünlükləri itirən çox sayda dövlət nümunələri var. Azərbaycan isə təkcə döyüş meydanında üstünlük əldə etməyib, həm də həmin qələbəni siyasi, diplomatik və strateji üstünlüyə çevirə bilib. Bu, dövlətin gücünün hərbi potensialla yanaşı, siyasi iradə və diplomatik çevikliklə ölçüldüyünü göstərir.

Uzun illər ərzində regionda formalaşmış status-kvo işğal faktoruna əsaslanırdı və beynəlxalq vasitəçilik mexanizmləri faktiki olaraq problemi donmuş vəziyyətdə saxlayırdı. Azərbaycan 2020-ci ildən sonra həmin köhnə düzəni dəyişərək regionda tamamilə yeni geosiyasi mərhələ formalaşdırdı.

5

# Bakıda vətəndaş cəmiyyətinin yeni geosiyasi platforması formalaşır

Bu gün ölkəmizdə QHT hərəkatı dövlətçilik maraqları, milli həmrəylik və ictimai məsuliyyət prinsipləri çərçivəsində inkişaf edir. Xüsusən ölkəmizdə fəaliyyət göstərən QHT-lər son illər sosial layihələr, şəhid ailələrinin və qazilərin müdafiəsi, ekoloji təşəbbüslər, gənclərin inkişafı, rəqəmsal maarifləndirmə və beynəlxalq ictimai diplomatiya istiqamətlərində ciddi uğurlar əldə ediblər. Azərbaycan vətəndaş cəmiyyəti artıq daxili sosial institut olmaqla yanaşı, həm də milli maraqların



beynəlxalq platformalarda müdafiə mexanizminə çevrilib.

Bunun ən parlaq nümunələrindən biri kimi Qarabağla bağlı ictimai təşəbbüsləri qeyd edə bilərik. Vətən nüharibəsindən təxminən 2 il sonra Azərbaycan QHT-ləri Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə təbii sərvətlərin qanunsuz istismarı, ekoloji təhlükələr, meşələrin məhv edilməsi, tarixi və dini abidələrə qarşı vandalizm faktlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərdilər. Şuşa istiqamətində keçirilən ekoloji etiraz aksiyası da vətəndaş cəmiyyətinin milli maraqlar ətrafında birləşməsinin simvoluna çevrildi.

4

# Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana Rusiya buğdası tədarük edilib



**Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana növbəti dəfə Rusiya buğdası göndərilib.**

AZƏRTAC xəbər verir ki, 14 vaqondan ibarət, çəkisi 977 ton olan buğda mayın 15-də Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə yola salınıb.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 27 min tondan çox taxıl, 4 min tondan çox gübrə, 133 ton alüminium və 68 ton qarabaşaq göndərilib. Tranzitlə yanaşı, Azərbaycandan Ermənistana neft məhsulları da ixrac olunur. İndiyədək Azərbaycandan Ermənistana 10 min tondan çox dizel, 979 ton Aİ-92 benzini və 2955 ton Aİ-95 benzini ixrac olunub.

# Bizim əbədi Laçın



Bu gün Laçın yenidən cənnətməkana çevrilib. Laçın Beynəlxalq Hava Limanının inşası, yeni tunellər, yollar və müasir üslubda bərpa edilən evlər rayonun simasını tamamilə dəyişib.

Həyata keçirilən quruculuq işlərinin nəticəsidir ki, Laçın şəhərinə, eləcə də Zabux, Sus və Bəylik kəndlərinə qayıdış həyata keçirilib, minlərlə laçınlı doğma yurdda sevincli günlərə başlayıb.

Yurdlarına dönən keçmiş məcburi köçkünləri öz doğma evlərində ziyarət etmək Prezident İlham Əliyevin xoş ənənələrindən biridir.

Ölkə rəhbərinin bayram əhvalı ilə keçən unudulmaz görüşlərindən biri 2023-cü il mayın 28-də Laçına dönən ilk sakinlərlə oldu.

"Cənnətin əgər təsviri varsa, bu gün, bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun", - deyə Prezident İlham Əliyev laçınlıların yurda dönüş sevinclərini bu qürurverici sözlərlə bölüşmüşdü.

Bəli, 1992-ci ilin may ayında didərgin salınan laçınlılar 31 il sonra yenə may ayında - bu dəfə Müstəqillik Günündə öz doğma yurdlarına qayıtdılar. Bu qayıdış tarixi ədalətin qələbəsi, Laçının yeni növrağının başlanğıcı oldu.

11

◆ Prezident İlham Əliyevin Qazaxıstana işgüzar səfəri

# Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir

## Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün mayın 15-də bu ölkəyə işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Dövlət müşaviri Yerlan Karin, Türküstan vilayətinin akimi Nuralxan Kuşerov və digər rəsmi şəxslər qarşıladılar.



## Türküstanda bir sıra mədəni məkanlarla tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlərlə birlikdə Türküstan şəhərindəki "Hazret Sultan" Muzey-Qoruğu ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçılarına qoruq haqqında məlumat verildi. Bildirildi ki, "Hazret Sultan" Milli Tarix-Mədəniyyət Muzey-Qoruğu 1989-cu ildə yaradılıb. Muzeydəki "Nadir Eksponatlar Zalı" Qazaxıstanın ən əhəmiyyətli muzey və sərgi layihələrindən biridir. Məqsəd Orta əsrlər dövrünün nadir tarixi və mədəni irsini qorumaq və təbliğ etməkdir. Muzeydə Türküstanın zəngin tarixi, türk dünyasının mənəvi irsi və Xoca Əhməd Yasəvi məqbərəsinə aid nadir artefaktlar nümayiş olunur. Hazırda muzey-qoruğun kolleksiyasında 26 mindən çox eksponat var ki, onların da təxminən 80 faizi artefaktdır.

* * *

Sonra Türküstanda yerləşən Xoca Əhməd Yasəvi məqbərəsi ilə tanışlıq oldu. Bura Mərkəzi Asiyanın ən böyük islam memarlığı abidələrindən biridir və Qazaxıstanın mənəvi rəmzi kimi qəbul edilir. Məqbərə XIV əsrin sonunda görkəmli sufi şair mütəfəkkir Əhməd Yasəvinin dəfn olunduğu yerdə Əmir Teymurun göstərişi ilə inşa olunub. Vahid memarlıq dizaynına malik bu kompleksdə 35-dən çox müxtəlif təyinatlı otaq yerləşir. Nadir artefaktların saxlanıldığı məqbərə islam dünyasının mənəvi və mədəni mərkəzlərindən biri hesab olunur.











## Prezident İlham Əliyev Türk Sivilizasiyası Mərkəzinin təməlqoyma mərasimində iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlər mayın 15-də Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçılarına mərkəz barədə məlumat verilib.

Bildirilib ki, layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib. Ən qabaqcıl standartlara uyğun inşa ediləcək mərkəzin əsas ideyası türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələri olan böyük sivilizasiya olduğunu nümayiş etməkdir.



* * *

Sonra "GovTech" rəqəmsal həllərin təqdimatı oldu. Qazaxıstanda süni intellektin inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə qonaqlara məlumat verildi. Eyni zamanda qeyd edildi ki, türk dövlətləri arasında, həmçinin bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var.

## Prezident İlham Əliyev Türküstanda TDT-nin qeyri-rəsmi Zirvə görüşündə iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev qarşıladı.

Azərbaycan Prezidenti və tədbirdə iştirak edən digər dövlət başçıları birgə foto çəkdirdilər.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edib.

*Bax: səh. 3*

◆ Prezident İlham Əliyevin Qazaxıstana işgüzar səfəri

# Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir

## Prezident İlham Əliyev Türküstanda TDT-nin qeyri-rəsmi Zirvə görüşündə iştirak edib







### Prezident İlham Əliyevin çıxışı




- Hörmətli Kasım-Jomart Kemeleviç!

Hörmətli dövlət başçıları!

İlk növbədə, göstərilən səmimi qonaqpərvərliyə görə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Qədim və zəngin tarixi-mədəni irsə malik Türküstan şəhərində olmaqdan çox məmnunam. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edildikdən sonra qardaşlaşdığı ilk şəhər Türküstan şəhəri olmuşdur. Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır.

Qazaxıstan ilə Azərbaycan arasındakı sıx əlaqələri nümayiş etdirmək üçün təkcə prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərləri göstərmək olar. Son 5 ildə bu, mənim Qazaxıstana səkkizinci səfərimdir. Prezident Tokayev isə Azərbaycana altı dəfə səfər etmişdir. Dörd il əvvəl imzalanmış Birgə Bəyannamə əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü təşəbbüsü artıq ənənəyə çevrilir.

Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir.

Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqu təşkil ediləcək.

Türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş I Türkoloji Qurultayın 100 illiyinə həsr edilən türk dünyası həftəsi iyun ayında Bakıda keçiriləcək. Əminəm ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək.

Hörmətli həmkarlar, Zirvə görüşünün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini əks etdirir. Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır.

Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır.

Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır.

Ölkəmizdə sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir.

Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.

Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta dəhlizin əsas seqmentlərindən birinə çevriləcək.

Orta dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış "e-Permit" sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir.

Əziz dostlar, ailəmiz olan türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək.

Diqqətinizə görə təşəkkür edirəm.




* * *

Sonda dövlətimizin başçısı və digər prezidentlər Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Türküstan Bəyannaməsini və Türk Dövlətləri Təşkilatının baş katibinin müavininin təyin olunması haqqında qərarı imzaladılar.

### Səfər başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri mayın 15-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yola saldı.



# Türküstanda Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclası olub

**Mayın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının "Süni intellekt və rəqəmsal inkişaf" mövzusunda qeyri-rəsmi iclasında çıxış edib.**

Azərbaycan Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir çıxışı zamanı regional və beynəlxalq təhlükəsizlik mühitinin həssas olaraq qaldığını, artan geosiyasi qeyri-müəyyənliklərin, davam edən münaqişələrin, hibrid təhdidlərin, enerji və ərzaq təhlükəsizliyi ilə bağlı çağırışların türk dövlətləri arasında daha sıx həmrəylik və koordinasiya tələb etdiyini bildirib.

Bu məqsədlə təhlükəsizlik, nəqliyyat, enerji dayanıqlılığı, kibertəhlükəsizlik və digər strateji sahələr üzrə əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb, Orta dəhlizin və türk dünyası vasitəsilə Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb bağlantı layihələrinin strateji əhəmiyyəti qeyd edilib.

Nazir çıxışında "Süni intellekt və rəqəmsal inkişaf" mövzusunun aktuallığını qeyd edərək, süni intellekt texnologiyalarının iqtisadiyyat, dövlət idarəçiliyi, təhsil, səhiyyə və təhlükəsizlik sahələrində sürətli transformasiya yaratdığını bildirib. Eyni zamanda kibertəhlükəsizlik,



məlumatların qorunması, dezinformasiya və texnoloji bərabərsizlik kimi çağırışların diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Ceyhun Bayramov Azərbaycanın rəqəmsal transformasiya və innovasiyaəsaslı inkişaf siyasətinə xüsusi önəm verdiyini bildirib. Qeyd olunub ki, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üzrə Tədbirlər Planı" bu istiqamətdə mühüm əhəmiyyət daşıyır.

Nazir ölkəmizin "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində Avropa ilə Asiya arasında rəqəmsal bağlantının gücləndirilməsinə verdiyi töhfəni xüsusi vurğulayıb. Bu kontekstdə Trans-Xəzər fiber-optik kabel layihəsinin strateji əhəmiyyəti diqqətə çatdırılıb.

Çıxış zamanı türk dövlətləri üçün rəqəmsal transformasiyanın uzunmüddətli əməkdaşlıq gündəliyinin əsas istiqamətlərindən biri olduğu qeyd edilib, rəqəmsal infrastrukturun gücləndirilməsi, süni intellekt və qabaqcıl texnologiyalar sahəsində birgə tədqiqat və innovasiya əməkdaşlığının inkişaf etdirilməsi, insan kapitalına və rəqəmsal bacarıqlara investisiyaların artırılmasının əhəmiyyəti vurğulanıb.

Nazir Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi çərçivəsində süni intellekt sahəsində əməkdaşlıq üzrə hüquqi baza yaradılması təşəbbüsü ilə çıxış etdiyini bildirib. Bununla yanaşı, Təşkilatın Katibliyinin institusional və rəqəmsal imkanlarının gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

İclasda Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında həyata keçirdiyi yenidənqurma işləri barədə də məlumat verilib. Qeyd olunub ki, 2026-cı ildə Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumunun 13-cü Sessiyası Azərbaycanın innovativ və dayanıqlı şəhərsalma sahəsində həyata keçirdiyi fəaliyyətlərin beynəlxalq səviyyədə qəbulunun göstəricisidir.

Sonda iclas çərçivəsində aparılacaq müzakirələrin türk dövlətləri arasında həmrəyliyin, koordinasiyanın və tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb





**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin Kommunist Partiyası (ÇKP) Şensi vilayət təşkilatının katibi, Şensi vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Çjao İde ilə görüşüb.**

Qarşılıqlı etimada söykənən çoxşaxəli əməkdaşlığın hər iki ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri olduğu qeyd edilib. Son illərdə sürətlə inkişaf edərək hərtərəfli strateji tərəfdaşlıq mərhələsinə yüksəlmiş dövlətlərarası münasibətlərin nümunəvi xarakter daşıdığı və geniş perspektivlərə malik olduğu bildirilib.

Azərbaycan-Çin münasibətlərinin mühüm istiqamətlərindən biri kimi YAP ilə ÇKP arasında əməkdaşlığın xüsusi diqqət mərkəzində saxlanıldığı qeyd edilib. 2024-cü ilin noyabr ayında imzalanmış Əməkdaşlıq Memorandumunun partiyalararası əlaqələrin siyasi və hüquqi əsaslarını daha da möhkəmləndirdiyi, yeni imkanlar yaratmaqla tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verdiyi bildirilib. YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşlərin ölkələr və partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının kadr hazırlığı sahəsində təcrübə mübadiləsinə təkan verəcəyinə inam ifadə olunub.

Görüşdə yeni geosiyasi reallıqlar fonunda istər Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın, istərsə də dünyada əsas güc mərkəzlərindən biri kimi çıxış edən Çinin özünəməxsus inkişaf modelinə malik olduğu nəzərə çatdırılıb. Hər iki ölkənin tərəqqi yolunun, o cümlədən əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin beynəlxalq səviyyədə böyük maraq doğurduğu və diqqətlə izlənildiyi bildirilib.

Görüş əsnasında Azərbaycan ilə Çinin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olduğu qeyd edilərək regionlararası əməkdaşlıq məsələlərinə də toxunulub. İqtisadi-ticari, turizm, elmi-texniki tərəqqi, təhsil, rəqəmsal texnologiyalar, mədəniyyət və digər sahələrdə mövcud potensialdan daha geniş istifadənin vacibliyi vurğulanaraq sürətli qlobal transformasiyalar dövründə səmərəli investisiya siyasətinin əhəmiyyəti qeyd edilib. Xüsusilə, Sian şəhərinin Çinin ən böyük logistika mərkəzlərindən biri kimi bu prosesdə roluna diqqət çəkilib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri fonunda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının uğurla tətbiq edildiyi bildirilib. Çin şirkətlərinin innovativ texnologiyalar, infrastruktur quruculuğu, alternativ enerji, nəqliyyat və sənaye layihələri çərçivəsində bu prosesdə iştirak imkanları müzakirə olunub.

Tərəflər yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər.

Hər iki ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq gələcəyə yönəlik hədəflərin və bu xüsusda yeni işbirliyi imkanlarının müzakirə edildiyi görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Şensi vilayətində humanoid robotlar istehsal edən "Zhilaite" texnoloji şirkətinə, Çin-Avropa qatarları üzrə logistika mərkəzinə, Sian Böyük Məscidinə və Sin Şixuandi İmperiya Muzeyinə, o cümlədən Terrakota Ordusu Muzeyinə ziyarəti də təşkil olunub.

YAP Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çinin "Şensi" televiziya kanalına müsahibəsində səfərin yekunlarına, eləcə də istər ölkələr, istərsə də partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb.

Mayın 15-də YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Slovakiya parlamentinin nümayəndə heyəti Füzuli, Şuşa, Xankəndi və Ağdam şəhərlərinə səfər edib










**Ölkəmizdə səfərdə olan Slovakiya Respublikası Milli Şurasının Sədri Rixard Raşinin rəhbərlik etdiyi parlament nümayəndə heyəti mayın 15-də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətini Milli Məclisin Sədr müavini Musa Qasımlı, parlamentin Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Anar Məmmədov, Slovakiyanın Azərbaycandakı səfiri Elçin Qasımov və digər rəsmi şəxslər müşayiət ediblər.

Səfər çərçivəsində qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gəliblər.

Burada qonaqlar Füzuli hava limanının maketi, limanın texniki göstəriciləri, həmçinin Füzuli şəhərinin bərpası planı ilə tanış olublar, rayonda görülmüş işlərlə bağlı geniş məlumat alıblar.

Şuşaya gələn qonaqlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və Şuşada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri, tarixi abidələrin bərpası və nəzərdə tutulan planlar barədə məlumat verilib.

Qonaqlar Cıdır düzündə və Aşağı Gövhər ağa məscidində də olublar. Bildirilib ki, qəhrəman əsgərlərimizin böyük şücaəti sayəsində işğaldan azad edilmiş Şuşanın Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirilməsi məkanına çevrilib.



Sonra nümayəndə heyəti Xankəndi şəhərinə gələrək burada aparılan genişmiqyaslı tikinti, bərpa və yenidənqurma işləri ilə yaxından tanış olub. Qonaqlar şəhərin görməli məkanlarından biri olan Zəfər parkını ziyarət ediblər. Burada onlara Azərbaycanın tarixi Qələbəsinin rəmzi olan parkın əhəmiyyəti barədə məlumat verilib. Sonra nümayəndə heyətinin üzvləri Qarabağ Universiteti, orada yaradılan müasir tədris infrastrukturu, auditoriyalar, kitabxana və laboratoriyalarla tanış olublar.

Səfər çərçivəsində slovakiyalı parlamentarilər Ağdam rayonunun Baş Qərvənd kəndində də olublar. Burada qonaqlara Slovakiya Respublikasının iştirakı ilə görülmüş işlər barədə məlumat verilib.

*"Azərbaycan"*

# Bakıda vətəndaş cəmiyyətinin yeni geosiyasi platforması formalaşır



**"Bakı Şəhərsalma Həftəsi" çərçivəsində keçirilən Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası təkcə növbəti beynəlxalq tədbir kimi deyil, müasir dövrdə vətəndaş cəmiyyətinin qlobal idarəetmədə artan rolunun yeni siyasi və institusional mərhələsi kimi də yadda qaldı.**

Dünyanın 114 ölkəsini - Latın Amerikası, Afrika, Asiya və Sakit okean hövzəsini təmsil edən vətəndaş cəmiyyəti institutlarının Bakıda bir araya gəlməsi Azərbaycanın artıq beynəlxalq humanitar-siyasi dialoqun əsas ünvanlarından birinə çevrildiyini bir daha nümayiş etdirdi.

Bu gün dünyada qeyri-hökumət təşkilatları təkcə ictimai birliklər və ya sosial təşəbbüs qrupları kimi qəbul edilmirlər, onlar həm də humanitar böhranların idarə olunmasında, yoxsulluqla mübarizədə, ekoloji təhlükələrin aradan qaldırılmasında, insan hüquqlarının müdafiəsində, təhsil və səhiyyə proqramlarının reallaşdırılmasında mühüm missiya daşıyırlar. Afrikada aclıqla mübarizə proqramlarından tutmuş Asiyada iqlim dəyişikliklərinə qarşı aparılan təşəbbüslərə, Latın Amerikasında sosial ədalət layihələrindən tutmuş Avropada insan hüquqları platformalarına qədər QHT-lər beynəlxalq münasibətlərin ayrılmaz tərkib hissəsinə çevriliblər. Bu mənada Bakıda keçirilən ilk Baş Assambleya vətəndaş cəmiyyətinin gələcək dünya nizamında daha fəal rol alacağına dair ciddi mesaj verdi.

Tədbirdə iştirak edən Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev çıxışında Qlobal Cənubun beynəlxalq sistemdəki artan təsirinə xüsusi diqqət çəkərək vurğulamışdır: "Biz yeni dünya nizamının formalaşmasında, sadəcə, müşahidəçi olmamalıyıq. Cənub ölkələri bu prosesin fəal iştirakçısı olmalıdır". Prezidentin köməkçisi həmçinin qeyd etmişdir ki, Azərbaycan coğrafi, tarixi və mədəni baxımdan özünü Qlobal Cənubun ayrılmaz hissəsi hesab edir və bu istiqamətdə ölkəmizin son illər həyata keçirdiyi siyasət artıq konkret nəticələr verir.

Bu fikirlər, əslində, Azərbaycanın son illər yürütdüyü çoxtərəfli diplomatik siyasətin məntiqi davamıdır. Xüsusən Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində fəaliyyəti, eləcə də COP29 və WUF13 kimi mühüm beynəlxalq platformalara evsahibliyi etməsi ölkəmizin inkişaf etməkdə olan dövlətlər arasında etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirib. Bakıda keçirilən Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasını isə həmin siyasi xəttin vətəndaş cəmiyyəti müstəvisində davamı kimi qəbul etmək olar.

Bu gün ölkəmizdə QHT hərəkatı dövlətçilik maraqları, milli həmrəylik və ictimai məsuliyyət prinsipləri çərçivəsində inkişaf edir. Xüsusən ölkəmizdə fəaliyyət göstərən QHT-lər son illər sosial layihələr, şəhid ailələrinin və qazilərin müdafiəsi, ekoloji təşəbbüslər, gənclərin inkişafı, rəqəmsal maarifləndirmə və beynəlxalq ictimai diplomatiya istiqamətlərində ciddi uğurlar əldə ediblər. Azərbaycan vətəndaş cəmiyyəti artıq daxili sosial institut olmaqla yanaşı, həm də milli maraqların beynəlxalq platformalarda müdafiə mexanizminə çevrilib.

Bunun ən parlaq nümunələrindən biri kimi Qarabağla bağlı ictimai təşəbbüsləri qeyd edə bilərik. Vətən müharibəsindən təxminən 2 il sonra Azərbaycan QHT-ləri Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə təbii sərvətlərin qanunsuz istismarı, ekoloji təhlükələr, meşələrin məhv edilməsi, tarixi və dini abidələrə qarşı vandalizm faktlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərdilər. Şuşa istiqamətində keçirilən ekoloji etiraz aksiyası da vətəndaş cəmiyyətinin milli maraqlar ətrafında birləşməsinin simvoluna çevrildi. 2022-ci il dekabrın 12-dən başlayan aksiya 138 gün davam edərək ölkə tarixində ən uzunmüddətli və fasiləsiz etiraz aksiyalarından biri olmaqla beynəlxalq ictimaiyyətin diqqətinin bölgəyə yönəlməsində mühüm rol oynadı. Həmin proses bir daha göstərdi ki, Azərbaycan QHT-ləri ölkənin suveren hüquqlarının müdafiəsi, ekoloji təhlükəsizlik və milli sərvətlərin qorunması istiqamətində də fəal ictimai gücə çevriliblər.

Bakıda təşkil edilən Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası isə bu prosesə yeni məzmun verdi. Tədbirdə platformanın institusional strukturu formalaşdırıldı və ölkəmizin təmsilçisi Fuad Kərimli baş katib seçildi. Ümid edə bilərik ki, qarşıdakı 5 il ərzində Azərbaycanın vətəndaş cəmiyyəti diplomatiyası da dünyada baş verən proseslərdə fəal aktorlardan biri kimi qətiyyətli mövqe sərgiləyəcək.

Əslində, Bakı bu mötəbər tədbirə evsahibliyi etməklə təkcə növbəti beynəlxalq forumun təşkilatçısı kimi müasir beynəlxalq münasibətlər sistemində vətəndaş cəmiyyətinin artan rolunu müəyyən edən yeni siyasi və ictimai platformanın əsas mərkəzlərindən birinə çevrildiyini nümayiş etdirdi. Dünyanın müxtəlif qitələrindən gələn ictimai liderlər, ekspertlər və vətəndaş cəmiyyəti nümayəndələri Bakıda qlobal problemləri müzakirə etməklə yanaşı, yeni geosiyasi reallıqlar fonunda Qlobal Cənub ölkələrinin ortaq maraqlarını ifadə edən ədalətə, bərabər tərəfdaşlığa, qarşılıqlı hörmətə və inklüziv inkişafa əsaslanan yeni əməkdaşlıq modelinin təməlini də qoydular. Bu platforma bir daha göstərdi ki, artıq dünya siyasətində qərarlar yalnız ənənəvi güc mərkəzlərində deyil, həmçinin inkişaf etməkdə olan ölkələrin birgə iradəsi əsasında formalaşa bilər. Azərbaycanın belə bir tarixi prosesin mərkəzində dayanması isə ölkəmizin artan beynəlxalq nüfuzunun, uğurlu çoxtərəfli diplomatiyasının, yumşaq güc siyasətinin və milli maraqlara söykənən strateji baxışının növbəti təzahürü kimi xüsusi əhəmiyyət daşıyır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan və Monqolustan parlamentarilərinin onlayn görüşü keçirilib

**Mayın 15-də Milli Məclisin Monqolustan ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvlərinin Monqolustan parlamentinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə onlayn görüşü olub.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Monqolustan ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Zahid Oruc iki ölkə arasında parlamentlərarası münasibətlərin qarşılıqlı etimad və dostluq prinsipləri əsasında yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib. Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın bu günlərdə Monqolustanın baş prokuroru ilə keçirdiyi görüşü xatırladan Zahid Oruc, belə görüşlərin münasibətlərin inkişafında əhəmiyyətli rol oynadığını vurğulayıb.

O, parlament səviyyəsində qarşılıqlı səfərlərin, komitələrarası təmasların və birgə təşəbbüslərin daha da intensivləşəcəyinə inamını bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycan ilə Monqolustan arasında əlaqələrin genişlənməsi yalnız siyasi deyil, həm də iqtisadi, humanitar və mədəni sahələrdə əməkdaşlığın inkişafına yeni imkanlar yaradacaq.

Monqolustan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Sonqobayn Zamira Monqolustan ilə Azərbaycan arasında münasibətlərin son illərdə dinamik inkişaf etdiyini vurğulayıb. O qeyd edib ki, iki dövlət arasında qarşılıqlı hörmət və etimada əsaslanan əlaqələr parlament diplomatiyasının genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Onlayn görüşdə söhbət zamanı Monqolustan ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri - Azər Badamov, Razi Nurullayev, Monqolustan Parlamentinin Azərbaycan ilə parlamentlərarası dostluq qrupunun üzvləri çıxış edərək dövlətlərimiz arasında dostluq münasibətlərinin inkişafından məmnunluqlarını ifadə ediblər, parlament diplomatiyasının ikitərəfli əməkdaşlığın genişlənməsində mühüm rol oynadığını vurğulayıblar.

Tədbirdə Monqolustan ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvü Mahir Süleymanlı, Monqolustan Parlamentinin Azərbaycan ilə parlamentlərarası dostluq qrupunun üzvləri iştirak ediblər.

*"Azərbaycan"*



# Mövcud reallıqlar fonunda Azərbaycanın postmüharibə siyasəti

**Azərbaycan Prezidenti İlham Əliyevin Zəngilan şəhərində istifadəyə verilmiş ilk yaşayış kompleksində yeni həyatlarına başlayan sakinlər qarşısında etdiyi çıxış postmüharibə dövründə Azərbaycanın siyasi, hərbi, diplomatik və iqtisadi strategiyasının ümumi fəlsəfəsini ortaya qoyan konseptual çağırışlar toplusudur. Bu çıxışında dövlətimizin başçısı həm regional güc balansı, həm Azərbaycanın beynəlxalq mövqeyi, həm Ermənistanla münasibətlərin gələcəyi, həm də işğaldan azad edilmiş ərazilərin yeni inkişaf modelini paralel şəkildə təqdim etmişdir. Bu mənada Prezidentin Zəngilanda etdiyi çıxış Azərbaycanın postmüharibə siyasətinin manifesti kimi də nəzərdən keçirilə bilər.**

### Azərbaycan - sülhün müəllifi

Bu gün Azərbaycan təkcə qalib dövlət deyil, həm də bölgədə yeni reallıqları müəyyən edən əsas siyasi güc mərkəzidir. Ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra Ermənistanla əldə olunmuş sülhün müəllifi məhz Azərbaycandır.

Dövlətimizin başçısının bu xüsusda səsləndirdiyi fikir də ölkəmizin yaratdığı yeni tarixi reallıqların əsas siyasi doktrinasını əks etdirir. Müzəffər Ali Baş Komandanın vurğuladığı kimi, Azərbaycan istəsəydi, hərbi əməliyyatları davam etdirə bilərdi. Ölkəmizin sülh gündəliyi isə zəiflikdən, hansısa xarici qüvvələrin təzyiqindən irəli gələn kompromis yox, hərbi və siyasi üstünlük nəticəsində yaranmış yeni status-kvoya əsaslanır. Yeni reallıqlar dövründə regionda yeni güc balansını məhz Azərbaycan formalaşdırıb. Ermənistan və onu dəstəkləyən qüvvələr hazırkı sülh vəziyyətinin ölkəmizin siyasi iradəsinin nəticəsi olması reallığını qəbul etməyə məcburdurlar.

Qeyd etdiyimiz bu məqamlarda dövlətimizin postmünaqişə dövründə formalaşdırdığı yeni geosiyasi status və siyasi legitimlik modeli də öz ifadəsini tapır. Həqiqət bundan ibarətdir ki, Azərbaycan artıq yalnız müharibədə qələbə qazanmış dövlətə deyil, həm də bölgənin gələcək siyasi arxitekturasını müəyyən edən əsas aktora çevrilib.

Bölgənin gələcəyi naminə burada ilk növbədə "qalib dövlət" anlayışı ilə "yeni reallıqları müəyyən edən siyasi güc mərkəzi" anlayışı arasındakı ciddi fərqi izah etməyə çalışaq: tarixdə hərbi qələbə qazanan, lakin siyasi nəticələri idarə edə bilməyib üstünlükləri itirən çox sayda dövlət nümunələri var. Azərbaycan isə təkcə döyüş meydanında üstünlük əldə etməyib, həm də həmin qələbəni siyasi, diplomatik və strateji üstünlüyə çevirə bilib. Bu, dövlətin gücünün hərbi potensialla yanaşı, siyasi iradə və diplomatik çevikliklə ölçüldüyünü göstərir.

Uzun illər ərzində regionda formalaşmış status-kvo işğal faktoruna əsaslanırdı və beynəlxalq vasitəçilik mexanizmləri faktiki olaraq problemi donmuş vəziyyətdə saxlayırdı. Azərbaycan 2020-ci ildən sonra həmin köhnə düzəni dəyişərək regionda tamamilə yeni geosiyasi mərhələ formalaşdırdı. Artıq bölgənin əsas gündəliyini münaqişə yox, kommunikasiyalar, təhlükəsizlik, iqtisadi inteqrasiya və sülh danışıqları təşkil edir. Bu dəyişikliklərin təşəbbüskarı və aparıcı qüvvəsi isə yenə də Azərbaycandır, onun başçısı İlham Əliyevdir.

Azərbaycan sülhə məcbur edilən tərəf deyil, əksinə, hərbi və siyasi üstünlüyə malik olduğu halda sülhü seçən tərəfdir. Bu məqam beynəlxalq münasibətlər nəzəriyyəsində "güc üzərindən formalaşan sülh" modelinə uyğun gəlir. Yəni sülh zəiflikdən doğmur, əksinə, üstün mövqedə olan tərəfin strateji qərarı kimi meydana çıxır. Prezidentin "istəsəydik, hərbi əməliyyatları davam etdirə bilərdik" fikri də məhz bu siyasi fəlsəfəni ifadə edir. Burada Azərbaycanın seçim imkanına malik olduğu, lakin regionun gələcəyi naminə sabitlik və sülh yolunu üstün tutduğu göstərilir.

Bu yanaşma eyni zamanda Azərbaycanın beynəlxalq imicinə də xidmət edir. Çünki müasir dünyada yalnız hərbi güc nümayiş etdirmək kifayət etmir, qalib dövlətin məsuliyyətli siyasi davranış sərgiləməsi də çox vacibdir. Azərbaycanın özünü revanşist və ekspansionist dövlət kimi deyil, regional sabitliyin təminatçısı kimi təqdim etməyə çalışması ölkəmizin diplomatik mövqelərini gücləndirən mühüm amildir.

Məlumdur ki, Cənubi Qafqazda uzun illər balans xarici güclərin təsiri və Ermənistanın işğal siyasəti üzərində qurulmuşdu. İndi isə təşəbbüs tamamilə Azərbaycanın əlindədir. Regiondakı nəqliyyat layihələri, enerji təhlükəsizliyi, Orta dəhliz, kommunikasiya xətləri və təhlükəsizlik məsələlərinin böyük hissəsi Azərbaycanın mövqeyi nəzərə alınmadan həll edilə bilməz. Bu isə ölkəni, sadəcə, regional iştirakçı deyil, strateji mərkəz statusuna yüksəldir.

Ermənistan və onu dəstəkləyən qüvvələrin bu reallığı qəbul etmək məcburiyyəti yeni mərhələnin psixoloji və siyasi nəticələrini göstərir. Burada söhbət yalnız hərbi məğlubiyyətin qəbulundan getmir, əsas məsələ odur ki, artıq regionda siyasi gündəliyi müəyyən edən tərəf dəyişib. Yəni əvvəlki dövrdə beynəlxalq vasitəçilərin və xarici aktorların dominant olduğu proseslər indi daha çox Azərbaycanın təşəbbüsləri ətrafında formalaşır. Bu da dövlətimizin regional liderlik əzminin əsas siyasi məzmununu təşkil edir.

### Tam, mütləq və birmənalı qələbə modeli

Cənab İlham Əliyev çıxışında haqlı olaraq belə bir arqument də irəli sürdü ki, əgər həmin dövlətlər və liderlər həqiqətən Ermənistanı qorumaq gücündə idilərsə, bunu niyə 2020-ci ildə etmədilər? Bu tezis bir neçə strateji məna daşıyır. İlk növbədə Azərbaycan öz hərbi qələbəsini heç bir kənar qüvvəyə güvənmədən və heç bir xarici qüvvə qarşısında da geri çəkilmədən müstəqil şəkildə qazanıb. Azərbaycanın qələbəsi hansısa xarici gücün dəstəyi ilə deyil, öz siyasi iradəsi, ordusu və milli birliyi hesabına əldə olunub. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı möhtəşən Zəfərdən sonra bəzi Qərb dairələrinin sonrakı ritorikası isə "simvolik siyasi teatr" təsiri bağışlayırdı və indi də bundan artıq deyil.

Azərbaycan Prezidenti Ermənistanla sərhəddə guya monitorinq aparmağa gəlmiş Avropa müşahidə missiyasına da bu kontekstdə yanaşır və bu yanaşmanı haqlı olaraq tənqid edir. Dövlətimizin başçısının fikrincə, bu missiyanın real təhlükəsizlik funksiyası yoxdur və daha çox siyasi nümayiş xarakterlidir. Regional təhlükəsizlikdə əsas faktor hansısa "müşahidə missiyaları", bölgədə sülh yox, suyu bulandırıb bulanıq suda balıq tutmaq istəyən hansısa Qərb dairələri deyil, məhz Azərbaycandır. Cənubi Qafqazda real hərbi-siyasi balansı Qərb yox, Azərbaycan və bölgə dövlətləri müəyyən edir. 2020-ci ildə və ondan sonra baş verən proseslər də regionda real güc balansının kimlərin əlində olduğunu açıq göstərdi. Bu mənada bəzi dövlətlərin və siyasi mərkəzlərin həm Vətən müharibəsinə qədər, həm müharibə dövründə, həm də sonradan nümayiş etdirdikləri ritorika, davranış arasında ciddi fərqlər mövcuddur. Onların öz mövqelərində sabitqədəm olmamaları, Azərbaycana qarşı uzun illər tətbiq etdikləri ikili standartlar kimi yeni reallıqlara münasibətdə də davranışlarını, ritorikalarını tez-tez dəyişmələri beynəlxalq sistemdə dəfələrlə müşahidə olunan "selektiv siyasi davranış" fenomenini ifşa edir. Müharibədən sonra bəzi Qərb dairələrinin Ermənistanı müdafiə edən ritorikası fonunda bu bariz həqiqət bir daha onu göstərir ki, həmin qüvvələr münaqişənin taleyini müəyyən edən əsas faktor deyildilər və ya heç zaman belə bir faktora çevrilmək imkanına malik olmamışlar. Çünki reallığı dəyişən amil məhz Azərbaycanın öz gücü idi.

Burada ən mühüm məqamlardan biri də Azərbaycanın "müstəqil qələbə modeli" anlayışıdır. Azərbaycan heç bir xarici hərbi kontingentə, beynəlxalq koalisiyaya və ya böyük gücün birbaşa müdaxiləsinə arxalanmadan möhtəşəm Zəfər əldə edib. Bu, postsovet məkanında nadir geosiyasi hadisələrdən biri hesab oluna bilər. Çünki bir çox regional münaqişədə əsas nəticəni böyük dövlətlərin mövqeyi müəyyən etdiyi halda Azərbaycan məsələsində əsas həlledici faktor milli dövlət gücü oldu. Bu isə həm dövlətçilik ideologiyası, həm milli özünəinam baxımından ciddi siyasi kapital formalaşdırır.

### Regional məsuliyyət

Azərbaycanın tarixi qələbəsini Müzəffər Ali Baş Komandanın qətiyyəti və qurduğu strategiya, ordumuzun gücü, dövlət-xalq birliyi təmin etdi. Bu reallıq siyasi legitimliyi gücləndirən vacib elementdir. Çünki müharibə dövründə cəmiyyətin siyasi rəhbərlik ətrafında konsolidasiyası dövlətin strateji dayanıqlılığını artıran əsas faktorlardandır. Bəzi Qərb dairələrinin müharibədən sonra göstərdikləri simvolik siyasi teatr, onların verdikləri bəyanatlar, göstərdikləri nümayişkaranə siyasi jestlər isə artıq dəyişmiş reallıqları geri qaytarmaq gücündə deyil. Münaqişənin taleyi artıq çoxdan həll olunandan sonra bölgəyə dair sərt bəyanatlar vermək və ya siyasi missiyalar göndərmək real təsir gücündən daha çox saxta görüntü effekti yaradır.

Hər kəsə bəllidir ki, Avropa müşahidə missiyasının praktik təhlükəsizlik mexanizmi yaratmaq imkanları məhduddur və onun əsas funksiyası siyasi mesaj verməkdən ibarətdir. Burada Azərbaycanın yanaşması ondan ibarətdir ki, regional təhlükəsizlik xarici müşahidəçilərin fəaliyyəti ilə deyil, bölgə dövlətlərinin yaratdığı real hərbi-siyasi balansla təmin olunur. Bu fikir Azərbaycanın regional məsələlərdə "kənar müdaxilə yox, regional məsuliyyət" prinsipini müdafiə etdiyini göstərir.

Bütün bu siyasi şoular isə bəzi xarici güclərin hələ də Cənubi Qafqaz regionunda sabitliyin tam bərqərar olmasında deyil, idarəedilən gərginlik mühitinin saxlanılmasında maraqlı olduqlarını göstərir. Belə bir reallıq fonunda bu gün Azərbaycan bu siyasətə qarşı regional sabitlik və praqmatik əməkdaşlıq modeli təklif edən əsas gücdür.

Cənab İlham Əliyevin öz çıxışında verdiyi mesaj tam aydındır: Cənubi Qafqazda yeni güc balansı artıq kənardan diktə edilmir. Əsas söz sahibi bölgə dövlətləri, xüsusilə də siyasi, iqtisadi və hərbi baxımdan ən güclü aktora çevrilmiş Azərbaycandır. Bu yanaşma Azərbaycanın son illərdə formalaşdırdığı xarici siyasət fəlsəfəsinin əsas xəttini - suveren qərarvermə, regional liderlik və milli maraqlar üzərində qurulmuş geosiyasi müstəqillik konsepsiyasını ifadə edir.

### Dağıntıdan strateji mərkəzə

Azərbaycan Prezidenti İlham Əliyev çıxışının mühüm bir hissəsində Zəngilanın gələcək inkişaf modeli ilə bağlı düşüncələrini, dövlətimizin planlarını da bölüşdü. Zəngilan yaxın gələcəkdə, sadəcə, azad edilmiş rayon kimi deyil, yeni iqtisadi-geosiyasi konsepsiyanın əsas elementlərindən biri kimi göz önündə canlandı.

Cənab İlham Əliyevin Zəngilanla bağlı səsləndirdiyi fikirlər, əslində, təkcə bir rayonun bərpası və inkişafı ilə bağlı plandan daha çox Azərbaycanın postmüharibə dövrü üçün formalaşdırdığı yeni geoiqtisadi strategiyanın konseptual təqdimatıdır. Yeni strateji dövrdə Azərbaycan azad edilmiş ərazilərə yalnız humanitar və sosial bərpa prizmasından yanaşmır. Dövlət həmin bölgələri gələcəyin iqtisadi inkişaf platforması, regional inteqrasiya mərkəzi və beynəlxalq kommunikasiya xəritəsinin yeni dayaqları kimi formalaşdırır. Bu baxımdan Zəngilan xüsusi strateji coğrafiyaya malikdir və bu məkan regionun gələcək iqtisadi və nəqliyyat arxitekturasında mühüm rol oynayacaq strateji mərkəz kimi nəzərdən keçirilir.

Prezidentin çıxışında ön plana çıxarılan əsas istiqamətlərdən biri Zəngilanın logistika və nəqliyyat habına çevrilməsi məsələsidir. Bunun arxasında həm coğrafi, həm də geosiyasi faktorlar dayanır. Zəngilan Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək potensial kommunikasiya xəttinin üzərində yerləşir. Eyni zamanda rayon İranla sərhəd zonasında yerləşdiyinə görə, Cənubi Qafqazın regional tranzit sistemində mühüm rol oynamaq potensialına malikdir. Bu isə Zəngilanı beynəlxalq kommunikasiya siyasətinin vacib elementinə çevirir.

Zəngəzur dəhlizi məsələsi də burada strateji və mərkəzi xətt kimi çıxış edir. Bu dəhliz bütövlükdə Avrasiya məkanında yeni nəqliyyat xəritəsinin formalaşması baxımından əhəmiyyət daşıyır. Çünki "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişdiyi nöqtələrdən biri məhz bu regiondur. Yəni söhbət, sadəcə, bir yol layihəsindən deyil, enerji, ticarət, logistika və geosiyasi təsir imkanlarının yenidən bölüşdürülməsindən gedir. Azərbaycan isə Zəngilan vasitəsilə bu prosesin əsas iştirakçılarından birinə çevrilmək niyyətini açıq şəkildə nümayiş etdirir.

Ləyaqətli hərbi qələbə, sözlə əməlin üst-üstə düşməsi, yürüdülən müstəqil siyasət, humanitar davranış ölkəmizin dünyadakı mövqeyini daha da gücləndirir və Azərbaycan artıq bütün dünyada müstəqil geosiyasi mərkəz kimi qəbul olunur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

---

“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 144** **Bakı şəhəri, 14 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182, № 4 (II kitab), maddə 412, № 7, maddə 721, № 10, maddə 983; 2026, № 1, maddə 83) 2-ci hissəsində "aprelin" sözü "iyulun" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 145** **Bakı şəhəri, 14 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 sentyabr tarixli 497 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 mart tarixli 62 nömrəli, 6 aprel tarixli 96 nömrəli və 29 aprel tarixli 123 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"na aşağıdakı məzmunda 71-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 71-1. | "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondu | 1846 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

“Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 148** **Bakı şəhəri, 15 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453, № 9, maddə 1085; 2025, № 8, maddə 806, № 11, maddə 1083, № 12 (II kitab), maddələr 1218, 1233) aşağıdakı məzmunda 1-3-cü hissə əlavə edilsin:

"1-3. Azərbaycan Respublikası Prezidentinin, Birinci xanımının və Birinci vitse-prezidentinin iştirakı ilə keçirilən ölkədaxili səfərlər zamanı protokol tədbirlərinin həyata keçirilməsini təmin edən Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti əməkdaşlarının mehmanxana xərcləri təqdim edilmiş təsdiqedici sənədlərə əsasən faktiki xərclərə uyğun olaraq ödənilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# Baş prokuror Masallı rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Mayın 15-də baş prokuror Kamran Əliyev Masallı Rayon Prokurorluğunun inzibati binasında Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı və Cəlilabad rayonundan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 51 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***"Azərbaycan"***

---

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən mayın 15-də ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov Laçın rayonunda Laçın və Kəlbəcər rayonlarından olan sakinləri qəbul edib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub, önünə gül dəstələri qoyularaq dahi şəxsiyyətin əziz xatirəsi anılıb.

Vətəndaş qəbulu zamanı ətraf mühitin və biomüxtəlifliyin mühafizəsi, yaşıllıqların qorunması, işlə təminolunma və digər aidiyyəti məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin araşdırılması və zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul əməkdaşlarına müvafiq tapşırıqlar verilib. ETSN-in fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydiyyata alınıb.

* * *

Energetika naziri Pərviz Şahbazov Neftçala rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Nazirlikdən bildirilib ki, görüşdə vətəndaşların elektrik enerjisi və təbii qaz təchizatı, kəndin qazlaşdırılması, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib. Qaldırılan məsələlərin mövcud qanunvericiliyə uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə Neftçala, Biləsuvar rayonlarından və Bakı şəhərindən olan 11 vətəndaş iştirak edib.

***AZƏRTAC***

# Türk Dövlətləri Təşkilatı: müasir nizamın yeni qütbü

## Azərbaycan TDT-nin institusional inkişafında və türk dünyasının inteqrasiyasında mühüm rol oynayır

**Dünya siyasətinin hazırkı mənzərəsində regional təşkilatların əhəmiyyəti durmadan yüksəlir. Qlobal miqyasda yaşanan geostrateji dəyişikliklər, alternativ iqtisadi-logistik dəhlizlərin meydana çıxması, enerji təhlükəsizliyinin ön plana keçməsi və çoxtərəfli dialoq regional qurumların çəkisini daha da artırmaqdadır. Bu kontekstdə Türk Dövlətləri Təşkilatı (TDT) Avrasiya coğrafiyasında siyasi, iqtisadi və geostrateji nüfuzunu sürətlə gücləndirən beynəlxalq platformalardan birinə çevrilib. Əvvəlki illərdə qarşılıqlı əlaqələrin əsasını mədəni-humanitar layihələr təşkil edirdisə, hazırda TDT siyasi, iqtisadi, enerji, təhlükəsizlik, nəqliyyat, rəqəmsallaşma kimi məsələləri əhatə edən çoxşaxəli strateji ittifaq funksiyasını yerinə yetirir.**



Bu dinamikada Azərbaycanın fəaliyyəti xüsusi çəkiyə malikdir. Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan türk dünyasının birliyi naminə sistemli xətt yürüdür. Bakının irəli sürdüyü ideyalar, reallaşdırdığı regional layihələr və qurum daxilindəki aktiv diplomatik addımları TDT-nin institusional baxımdan təkmilləşməsinə, tərəfdaşlıq sahələrinin şaxələnməsinə və türk coğrafiyasında siyasi yekdilliyin bərqərar olmasına ciddi təkan verir.

Türk Dövlətləri Təşkilatının təməli 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində baş tutan sammitdə qoyulub. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə keçirilən həmin tarixi toplantıda Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın dövlət rəhbərləri "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişini imzalayaraq yeni bir qurumun yaradılmasını rəsmiləşdirdilər. Ötən müddət ərzində strukturun təşkilati formalaşması sürətləndi, əlaqələrin hüquqi bazası gücləndirildi. 2021-ci ildə reallaşan İstanbul Sammitində qurumun adı rəsmi şəkildə Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirildi. Bununla türk respublikalarının əməkdaşlığı ilk dəfə olaraq vahid beynəlxalq təşkilat çərçivəsində sistemli xarakter aldı. Bununla da TDT lokal platforma çərçivəsindən çıxaraq, qlobal miqyasda geosiyasi və geoiqtisadi çəkisi olan nüfuzlu beynəlxalq instituta çevrilməyə başladı.

TDT-nin qeyri-rəsmi sammitlərinin keçirilməsi praktikasının ilk dəfə Azərbaycanın çağırışı ilə Şuşada reallaşdırılması təşkilat daxilində yeni bir siyasi dialoq mədəniyyətinin əsasının qoyulması baxımından müstəsna əhəmiyyətə malikdir. 2024-cü ilin iyul ayında Qarabağ torpağında təşkil edilən ilk qeyri-rəsmi Zirvə toplantısı türk dünyasının siyasi yekdilliyini və ortaq strateji addımlarını aydın şəkildə nümayiş etdirdi. Həmin görüşdə qəbul olunan Qarabağ Bəyannaməsi isə qurum üzvlərinin vahid siyasi baxış xəttini müəyyən edən fundamental sənəd oldu. 2025-ci il oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib. TDT zirvəsinin Qəbələ şəhərində təşkil olunması həm siyasi, həm də rəmzi baxımdan dərin məna kəsb edirdi. Müasir dövrdə TDT rəhbərliyinin qarşısında duran fundamental hədəflərdən biri qurumun daxilindəki praktiki əməkdaşlıq rıçaqlarını daha da real etməkdir. Bu mənada Qəbələ görüşü, sadəcə, bəyanatların səsləndiyi bir məkan olmaqla qalmadı, həm də real iqtisadi layihələrin, innovativ təşəbbüslərin və birgə qərarların qəbul edildiyi mühüm bir formata çevrildi.

Mayın 15-də Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Zirvədə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev TDT dövlət başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü təşəbbüsünün artıq ənənəyə çevrildiyini deyib. Dövlətimizin başçısı vurğulayıb ki, bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir: "Keçən ilin oktyabr ayında Qəbələ Zirvə görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir. Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqu təşkil ediləcək. Türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş I Türkoloji Qurultayın 100 illiyinə həsr edilən türk dünyası həftəsi iyun ayında Bakıda keçiriləcək. Əminəm ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək".

Prezident İlham Əliyev qeyd edib ki, Zirvə görüşünün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini əks etdirir: "Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır. Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir". Azərbaycan Prezidenti türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığın da genişləndiyini vurğulayıb: "Cari qlobal geosiyasi şəraitdə Orta dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi (TRIPP) Orta dəhlizin əsas seqmentlərindən birinə çevriləcək. Orta dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış "e-Permit" sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir. Əziz dostlar, ailəmiz olan türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək".

Dövlətimizin başçısı türk dünyasını ailə adlandıraraq, bu birliyin XXI əsrin əsas geosiyasi və geoiqtisadi qütblərindən birinə çevrilməsi missiyasını qarşıya qoyub. Azərbaycanın bu yolda bütün səylərini səfərbər edəcəyini bildirməsi Bakının türk birliyinin möhkəmlənməsinə olan sadiqliyinin növbəti nümayişidir.

Azərbaycan hər zaman Türk Dövlətləri Təşkilatının fəaliyyətində ən aktiv və kreativ yanaşma nümayiş etdirən dövlət olub. Prezident İlham Əliyevin türk dünyasının birliyi və vahid güc mərkəzinə çevrilməsi istiqamətində irəli sürdüyü konseptual ideyalar qardaş ölkələr tərəfindən yüksək qiymətləndirilib. Ölkəmizin TDT-yə rəhbərlik etdiyi dövrlərdə təşkilatın strukturunun müasirləşməsi, əməkdaşlıq sahələrinin coğrafiyasının genişlənməsi və real sahələrdə konkret addımların atılması istiqamətində ciddi uğurlar qazanılıb.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Fransa postmüstəmləkə təfəkküründən uzaqlaşmaq istəmir

**Azərbaycanın Vətən müharibəsində və antiterror əməliyyatlarında qazandığı qələbələr, bunun sayəsində regionda yaranmış yeni reallıqlar bəzi dairələri ciddi narahat edir. Onlar hər hansı bir formada regionda maraqlarını təmin etmək istəyirlər. Fransa Prezidenti Emmanuel Makronun Ermənistana son səfəri və "Yerevan Dialogue 2026" forumunda səsləndirdiyi fikirlərə, iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulmasına da Cənubi Qafqazda formalaşmış yeni geosiyasi reallıqlar fonunda baxmaq lazımdır.**



Milli Məclisin komitə sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan ərazi bütövlüyünü bərpa etməsi, öz torpaqlarında separatizmə tam son qoyması ilə Cənubi Qafqazda onilliklər ərzində davam edən status-kvo tarixə qovuşub: "Bu gün Azərbaycan və Ermənistan sülh şəraitində yaşayırlar, müxtəlif təmaslar vasitəsilə bu şəraitin möhkəmlənməsini təmin edirlər. Belə bir şəraitdə regionda yaranmış yeni reallıq fonunda Makronun çıxışında Ermənistanın təhlükəsizliyi və bu ölkəyə siyasi dəstək verməsi ilə bağlı xüsusi ifadələrin yer alması diqqət çəkir. Hesab edirəm ki, bu, Fransanın Cənubi Qafqazda artan geosiyasi ambisiyalarının növbəti təzahürüdür. Hazırkı dövrdə Fransanın Ermənistan üzərindən siyasi təsir imkanlarını genişləndirməyə çalışması, özünü təhlükəsizlik, diplomatiya və regional proseslərin əsas aktorlarından biri kimi təqdim etməsi, əslində, Parisin postmüstəmləkə təfəkküründən uzaqlaşmadığını göstərir. Makron bir tərəfdən "vasitəçilik" ritorikasından istifadə edir, digər tərəfdən isə regionda öz təsir dairəsini formalaşdırmağa, Ermənistanı öz siyasətinin əsas alətinə çevirməyə çalışır. Uzun illər Rusiyanın diktəsi altında olan Ermənistan isə Avropayönümlü siyasət apararaq, daha çox Fransanın çətiri altına girməkdə maraqlı kimi görünür".

Deputat xatırladıb ki, Makronun çıxışında əsas ziddiyyət açıq siyasi və hətta təhlükəsizliklə bağlı dəstək fonunda "vasitəçi rolunu oynamağa davam edəcəyini" bildirməsidir. Bu fikrin heç bir məntiqi əsası yoxdur. İlk növbədə əgər bir ölkə açıq şəkildə tərəflərdən birinin maraqlarını müdafiə edirsə, onun neytral vasitəçi statusu təbii olaraq suallar doğurur və bu mümkünsüzdür. Biz otuz il ərzində bunun şahidi olmuşuq. Digər tərəfdən Azərbaycan ilə Ermənistan arasında artıq hər hansı vasitəçiyə ehtiyac yoxdur, çünki birbaşa təmaslar əsasında mövcud fikir ayrılıqları müzakirə olunur.

Ş.İsmayılov qeyd edib ki, Parisin İrəvana nümayiş etdirdiyi dəstək təbii ki, həm də Ermənistanın daxili siyasi gündəliyi kontekstində də qiymətləndirilə bilər: "Ermənistanın Avropa ilə yaxınlaşma kursunun xüsusi vurğulanması qarşıdan gələn seçkiöncəsi dövr fonunda Nikol Paşinyanın rəqiblərinə, uzun illərdən sonra Ermənistanı itirmək təhlükəsi ilə üz-üzə olan Rusiyaya verilən mesaj idi. Ümumilikdə isə bu bir reallıqdır ki, heç bir qüvvə Azərbaycanın bölgədə yaratdığı yeni geosiyasi vəziyyəti dəyişdirmək gücündə deyil".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Minsk qrupu yarıtmaz fəaliyyəti ilə siyasi səhnədən silindi

**"Otuzillik işğal dövründə ATƏT-in Minsk qrupu ədalətsiz mövqe sərgiləyərək, regionda status-kvonun qorunub saxlanmasında maraqlı idi. Bu səbəbdən danışıqlar nəticəsiz davam etdirilir, Ermənistan işğala həvəsləndirilir, Azərbaycan isə vəziyyətin sona qədər bu formada davam edə bilməyəcəyi ilə bağlı xəbərdarlıq edirdi".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Nigar Məmmədova deyib. O xatırladıb ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası BMT qətnamələrində əks olunsa da, həmin sənədlərin icrası üçün ciddi təzyiq mexanizmləri tətbiq edilməyib. "2020-ci ilin sentyabrında Azərbaycanın başlatdığı əks-hücum əməliyyatı da təsdiqlədi ki, rəsmi Bakı haqlıdır. Heç bir halda regionda status-kvo vəziyyəti sonsuza qədər davam edə, Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradıla bilməz. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyətinə xitam verildi. Beləliklə, proses məntiqi sonluğuna çatdı".

Deputat əlavə edib ki, Prezident İlham Əliyev ötən həftə Zəngilanda sakinlər qarşısında çıxışında bir daha ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyinə, onun uzun illər ərzində nümayiş etdirdiyi yarıtmaz vasitəçilik siyasətinə və münaqişənin həlli üçün çalışmaq əvəzinə, onu "dondurmaq" cəhdlərinə toxunub. Dövlət başçımızın bəyan etdiyi kimi, Minsk qrupu faktiki olaraq zaman uzatmaqla məşğul idi, onların əsas məqsədi münaqişəni həll etmək yox, onu idarəolunan vəziyyətdə saxlamaq idi. "Dondurulmuş münaqişə" anlayışı da məhz bu siyasətin məhsulu idi. Lakin Azərbaycan bu vəziyyətlə barışa bilməzdi və barışmadı da. Dövlətin siyasi iradəsi, iqtisadi gücü və ordunun qüdrəti nəticəsində 2020-ci ildə İkinci Qarabağ müharibəsi bölgədə tamamilə yeni reallıq yaratdı. Minsk qrupu isə tarixi missiyasını yerinə yetirə bilmədi, nəticədə tam siyasi iflasa uğradı", - deyə N.Məmmədova əlavə edib.

Deputat qeyd edib ki, beynəlxalq təşkilatların illərlə edə bilmədiyini Azərbaycan 44 günlük Vətən müharibəsində öz gücü hesabına həyata keçirdi. İşğal altındakı torpaqlarımız azad edildi, ölkənin ərazi bütövlüyü təmin olundu və Minsk qrupunun fəaliyyətsizliyi bütün dünyaya açıq şəkildə nümayiş etdirildi.

Azərbaycanın siyasi və diplomatik müstəvidə də qalib dövlət olduğunu beynəlxalq ictimaiyyətin də qəbul etdiyini vurğulayan N.Məmmədova əlavə edib ki, heç bir qüvvə ölkəmizin milli maraqları üzərindən öz yarıtmaz vasitəçilik mexanizmini həyata keçirə bilməz: "Beləliklə, ATƏT-in Minsk qrupu yarıtmaz fəaliyyəti ilə yanaşı, həm də ədalətsiz yanaşması, ikili standartlar və regiondakı reallığı düzgün qiymətləndirə bilməməsi ilə siyasi səhnədən silindi. Azərbaycan isə sübut etdi ki, beynəlxalq hüququ real həyatda təmin etmək üçün siyasi iradə əsas şərtdir".

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

# "Azərbaycan qlobal ərzaq böhranının qarşısının alınmasında əsas aktora çevrilə bilər"

**"Hörmüz boğazının bağlanması qlobal inflyasiyaya səbəb olacaq. Bu boğaz dünyanın əsas enerji və ticarət mərkəzlərindən biri olaraq qalacaq, habelə qlobal neft, mayeləşdirilmiş təbii qaz və gübrə daşımalarının əhəmiyyətli bir hissəsinin keçdiyi yer olacaq. Bu axınların pozulması yükdaşımaların qiymətlərinin, sığorta haqlarının, yanacaq xərclərinin və labüd olaraq ərzaq qiymətlərinin tezliklə artması ilə nəticələnəcək. Belə bir vəziyyətdə Azərbaycan qlobal ərzaq böhranının qarşısının alınmasında əsas ölkəyə çevrilə bilər".**



Bu fikri AZƏRTAC-a Macarıstandakı Ludovik Mərkəzi Avropa Dövlət İdarəçilik Universitetinin Türk Araşdırmaları Mərkəzinin baş məsləhətçisi və koordinatoru Devid Biro ifadə edib.

O vurğulayıb: "Avropada dayanıqlığı təmin etmək üçün marşrutların şaxələndirilməsi vacibdir. Bu kontekstdə Orta dəhliz mühüm marşrutdur, çünki alternativlər təqdim edir. Bu isə qlobal təchizat zəncirləri tərəfindən yüksək qiymətləndirilən cəhətdir. O, Hörmüz boğazından keçən dəniz yollarını əvəz edə bilməz və Şərq ilə Qərb arasında bütün ticarət həcmini də təmin edə bilməyəcək. Lakin bu, siyasi cəhətdən həssas dəhlizlərdən asılılığı azaltmağa və əsas marşrutlar təzyiq altında qalarsa, müəyyən dərəcədə dayanıqlıq təmin etməyə kömək edə bilər".

Macar ekspertin sözlərinə görə, Orta dəhlizin Avropa üçün cəlbediciliyi təkcə yük axınlarının sürətində və ya qiymətində deyil, həm də dominant sistemdə qeyri-sabitlik yarandıqda malların fasiləsiz axınının təmin edilməsindədir. O əlavə edib: "Ərzaq təhlükəsizliyi baxımından yanaşdıqda bu dəhlizin əhəmiyyəti daha çox aydın olur. Ərzaq bazarlarının qiymətləri nəqliyyat xərclərinə, enerji qiymətlərinə, gübrələrin mövcudluğuna və dəniz nəqliyyatı ilə bağlı risklərə həssasdır.

Hörmüz böhranı idxal olunan zəruri mallar, heyvan yemi və qida məhsulları da daxil olmaqla, kənd təsərrüfatı-ərzaq zəncirində xammal və materialların qiymətlərinin artmasına səbəb olacaq".

Devid Biro hesab edir ki, Avropanın onsuz da güclənən inamsızlıq üçün kifayət qədər səbəbi var: "Ukraynadakı müharibə və davamlı logistika pozuntuları vəziyyətə artıq təsir edib. Orta dəhliz dar dəniz kanalları və ya boğazlarında hərəkət etmək baxımından lazım olan vaxtı azaltmaq və həddindən artıq həssas hala gələn təchizat zənciri üçün bufer rolunu oynaya bilər".

Azərbaycanın Cənubi Qafqazda dəhlizin əsas mərkəzində yerləşdiyini, Xəzər bölgəsini Gürcüstan və Türkiyə ilə birləşdirdiyini və dəhliz boyunca əməliyyat davamlılığını təmin etdiyini vurğulayan macar ekspert qeyd edib ki, Orta dəhliz limanların, dəmir yolu əlaqələrinin və gömrük rəsmiləşdirilməsinin problemsiz işləyəcəyi təqdirdə etibarlı bir logistika platformasına çevrilə bilər.

"Son zamanlar Azərbaycanın artan tranzit rolu barədə məlumatlar yayılıb. Ölkənizdəki infrastruktur dəhlizin tutumunu və etibarlılığını tədricən artırmağa başlayıb. Azərbaycan qlobal ərzaq böhranının qarşısının alınmasında əsas aktora çevrilə bilər, amma təkbaşına deyil. Həmçinin Qara dəniz, Süveyş kanalı və ya Hörmüz boğazının əvəzedicisi kimi də deyil. Bu, böhranın pisləşməsinin qarşısını almağa kömək edə biləcək sistemli dayanıqlılıq elementlərindən birinə çevrilə bilər. Dağıdıcı dövrlərdə Orta dəhliz idxal, ticarət və yük axınının idarə olunması ilə məşğul olanlar üçün ənənəvi marşrutlara alternativ kimi də dəyərlidir. Böyük fövqəladə hallar zamanı ticarət axınlarının qismən yenidən yönləndirilməsi böhranın qarşısını almağa, qiymət artımlarını minimuma endirməyə və bazarların bərpası üçün vaxt verməyə kömək edə bilər. Dayanıqlılıq zərbələrin amortizasiyasında deyil, onların təsirini məhdudlaşdırmaqla bağlıdır", - deyə Devid Biro fikirlərini yekunlaşdırıb.

# "Orta dəhliz Azərbaycanın Avrasiyanın strateji nəqliyyat mərkəzi kimi əhəmiyyətini gücləndirir"

**"Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) son illərdə dəyişən geosiyasi vəziyyət və qlobal təchizat zəncirlərinin transformasiyası fonunda Avrasiyada ən çox tələb olunan logistika layihələrindən birinə çevrilib".**



Bu barədə AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və dünya" proqramının növbəti buraxılışında logistika və nəqliyyat marşrutlarının inkişafı üzrə beynəlxalq ekspert Qaydar Abdikerimov bildirib.

Onun sözlərinə görə, Orta dəhliz tam şəkildə özünü doğruldub. Yaxın Şərqdə gərginliyin artması, qlobal logistikadakı dəyişikliklər və Asiya ilə Avropa arasında ticarətin artması bu marşruta olan tələbatı əhəmiyyətli dərəcədə artırıb.

Ekspert vurğulayıb ki, Orta dəhliz hazırda ənənəvi nəqliyyat marşrutlarına vacib alternativ kimi qəbul edilir, onun əhəmiyyəti isə dəyişən qlobal geoiqtisadi arxitektura ilə yanaşı artmaqda davam edir. Onun qiymətləndirməsinə görə, region ölkələri yeni çətinliklərə vaxtında hazırlaşmağı və tranzit daşınmaların davamlı inkişafı üçün infrastruktur təməlini yaratmağı bacarıb.

# Makronun Cənubi Qafqaz siyasəti regional reallıqlarla toqquşur

**"Fransa Prezidenti Emmanuel Makronun Ermənistana nəzərdə tutulan səfəri və bu səfərin Türkiyə üzərindən mümkün tranzit marşrutları ilə bağlı müzakirələr Cənubi Qafqazda diplomatik gündəmin əsas mövzularından birinə çevrilib".**



Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert və jurnalist Mustafa Söğüt bildirib.

Onun sözlərinə görə, regionda baş verən dəyişikliklər Cənubi Qafqazı klassik geosiyasi təsir zonası çərçivəsindən çıxarıb və yeni güc balansı formalaşdırıb.

"Bu mərhələdə tək tərəfli diplomatik təşəbbüslər əvvəlki kimi nəticə vermir. Region dövlətlərinin artan siyasi və iqtisadi koordinasiyası xarici aktorların manevr imkanlarını daha da məhdudlaşdırır və yeni diplomatik davranış modeli tələb edir. Emmanuel Makronun səfər marşrutu ətrafında yaranan müzakirələr yalnız texniki məsələ deyil, eyni zamanda siyasi mesaj elementləri ilə də bağlıdır. Bu cür simvolik addımlar regiondakı real güc balansını dəyişmək gücündə deyil. Beynəlxalq münasibətlərdə hava məkanları və tranzit qərarları suverenlik prinsiplərinə əsaslanır və bu prinsiplər siyasi təzyiq vasitəsinə çevrilməməlidir", - deyə Mustafa Söğüt əlavə edib.

Ekspert xüsusilə Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev arasında formalaşan strateji əməkdaşlığın regionda yeni reallığın əsas sütunlarından biri olduğunu bildirib: "Türkiyə və Azərbaycanın koordinasiyası Cənubi Qafqazda nəqliyyat, enerji təhlükəsizliyi və siyasi sabitlik baxımından həlledici rol oynayır. Bu əməkdaşlıq regionun qlobal iqtisadi və logistika sistemlərinə inteqrasiyasını sürətləndirir. Cənubi Qafqazda artıq heç bir xarici güc təkbaşına dominant rol oynaya bilmir. Region ölkələrinin öz aralarındakı əməkdaşlıq səviyyəsi və qarşılıqlı maraqlar bu mənzərəni dəyişib. Bu yeni vəziyyət diplomatik təşəbbüslərdə daha realist yanaşma tələb edir və regional balansı nəzərə almayan siyasətlər nəticəsiz qalır".

Onun sözlərinə görə, Emmanuel Makron administrasiyasının Cənubi Qafqaz siyasətində müşahidə olunan aktivlik bəzən regionun real dinamikaları ilə uyğun gəlmir. Bu uyğunsuzluq isə Fransa diplomatiyasının effektivliyinə mənfi təsir göstərir. O vurğulayıb ki, uzunmüddətli sabitlik üçün region ölkələri ilə daha praqmatik, qarşılıqlı hörmətə əsaslanan və çoxtərəfli dialoq mexanizmləri qurulmalıdır.

Ekspert əlavə edib ki, Cənubi Qafqaz artıq yeni diplomatik mərhələyə daxil olub və bu mərhələdə əsas faktor regional əməkdaşlıqdır. Enerji marşrutları, nəqliyyat dəhlizləri və təhlükəsizlik mexanizmləri bu yeni mərhələnin əsas elementlərini təşkil edir.

Mustafa Söğütün fikrincə, gələcək illərdə regionun inkişaf trayektoriyası məhz bu əməkdaşlıq platformalarının möhkəmlənməsindən asılı olacaq.

Türkiyəli ekspertin qənaətinə görə, Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıq artıq geri dönməz xarakter daşıyır. Onun sözlərinə görə, bu reallıqda İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında formalaşan strateji koordinasiya regionun sabitlik arxitekturasının əsas dayağı olaraq çıxış edir və gələcək balansı müəyyən edən əsas amil olaraq qalır.

Ümumdünya Şəhərsalma Forumu





# 13-cü Ümumdünya Şəhərsalma Forumu





WORLD URBAN FORUM

**Sabah Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) başlayacaq. Mayın 17-dən 22-dək davam edəcək forumun əsas mövzusu "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri"dir.**




# Bakı növbəti dəfə dünyanı bir araya gətirir

## WUF13 Azərbaycanın artan geosiyasi rolunun beynəlxalq etirafıdır

Ümumdünya Şəhərsalma Forumu müasir dünyanın üzləşdiyi ən aktual məsələlərdən birini araşdırmaq məqsədilə 2001-ci ildə BMT tərəfindən təsis edilib. Fəaliyyətə 2002-ci ildə Keniyanın Nayrobi şəhərində keçirilən ilk sessiya ilə başlayıb və o vaxtdan bəri dünyanın müxtəlif şəhərlərində təşkil olunur. Məqsəd geniş ictimaiyyət arasında davamlı şəhərsalma ilə bağlı məlumatlılığı artırmaq, inklüziv müzakirələrlə yanaşı, qabaqcıl təcrübə və onun mübadiləsi sayəsində dayanıqlı şəhər inkişafı üzrə kollektiv biliyi təkmilləşdirməkdir.

2016-cı ildə Ekvadorun Kito şəhərində BMT-nin Mənzil və Dayanıqlı Şəhər İnkişafı Konfransı keçirilib və bu tədbirdə yeni şəhərsalma gündəliyi qəbul edilib. WUF13 məhz yeni şəhər gündəliyinin 20 illik icra müddətinin orta mərhələsinə təsadüf edir. Bu, əldə olunan irəliləyişlərin qiymətləndirilməsi və növbəti mərhələ üçün yol xəritəsinin müəyyən edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Tədbir çərçivəsində ilk dəfə tətbiq olunan Təcrübə Mərkəzi vasitəsilə şəhərsalma sahəsində real problemlərin həlli yolları və uğurlu təcrübələr müzakirə olunacaq.

Ümumiyyətlə, WUF qlobal səviyyədə böyük çəkiyə malikdir. Bu gün planetimizdə 4 milyarddan çox insan, yəni qlobal əhalinin yarıdan çoxu meqapolislərdə və şəhərlərdə cəmləşib. Proqnozlara görə, 2050-ci ilə qədər dünya sakinlərinin təxminən 70 faizi şəhərlərdə məskunlaşacaq. Bu gedişat urbanizasiya proseslərinin tənzimlənməsi üçün beynəlxalq koalisiyaların yaradılmasını və ortaq qərarların qəbulunu qaçılmaz edir. O baxımdan, BMT və bir sıra beynəlxalq təşkilatlar sürətli şəhərləşmənin doğurduğu sosial, iqtisadi və ekoloji fəsadlarla bağlı həyəcan təbili çalır, böhrandan çıxış yollarını axtarırlar. Problemin həllində daim fəal mövqe nümayiş etdirən və qlobal təşəbbüslərə dəstək verən dövlətlərdən biri də Azərbaycandır.

Ölkəmizin WUF13-ə evsahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun və artan geosiyasi rolunun göstəricisidir. Azərbaycan yalnız enerji və nəqliyyat mərkəzi kimi deyil, həm də beynəlxalq tədbirlərin uğurlu təşkilatçısı kimi tanınır. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də dövlətimizin urbanizasiya məsələlərinə verdiyi önəmi göstərir. Bakı müasir infrastrukturu, nəqliyyat imkanları, təhlükəsizlik mühiti, beynəlxalq təcrübəsi və multikultural atmosferi ilə forum üçün ideal məkan hesab olunur.

Miqyasına görə WUF13 iki il əvvəl Bakıda keçirilmiş COP29 konfransını xatırlatsa da, burada əsas diqqət şəhərsalma, memarlıq və dayanıqlı məskunlaşma məsələlərinə yönəlib. COP29 Azərbaycanın logistik hazırlığını, yüksək təhlükəsizlik standartlarını, diplomatik koordinasiya və qlobal əməkdaşlıq mexanizmlərini bütün dünyaya sübut etdi. WUF13 isə bu institusional təcrübənin məntiqi davamı kimi qəbul olunur. Üstəlik, budəfəki sessiya birbaşa insanların gündəlik problemlərinin praktiki həllinə yönəlir ki, bu da forumun əhəmiyyətini qat-qat artırır. O səbəbdən, WUF13-ün əhatə dairəsi paytaxt hüdudlarını aşaraq bütün respublikanı bürüyüb. Forum ərəfəsində ölkə ictimaiyyətinin mötəbər beynəlxalq tədbir barədə məlumatlandırılması məqsədilə Azərbaycanın müxtəlif şəhərlərində festivallar təşkil olunub. Festivallar ümumilikdə 9 şəhərdə 115 mindən çox insanı bir araya gətirib. Bu tədbirlər, sadəcə, maarifləndirmə xarakteri daşımır, ölkəmizin WUF13-ə nə qədər məsuliyyətlə yanaşdığını göstərir.

Forumun ilk günündə Yeni Şəhərsalma Proqramı ilə əlaqədar nazirlər səviyyəsində görüş təşkil olunacaq. Azərbaycanın sədrliyi altında keçiriləcək bu görüşdə hökumət nümayəndələri bir araya gələrək 2036-cı ilə qədər olan növbəti mərhələ üçün prioritetləri müzakirə edəcəklər. Nazirlərin görüşü ölkələrə təcrübə mübadiləsi aparmaq, mövcud boşluqları müəyyənləşdirmək və öhdəlikləri möhkəmləndirmək üçün platforma təqdim edəcək. Eyni zamanda görüş 2026-cı ildə BMT Baş Assambleyasında keçiriləcək yüksəksəviyyəli icmal ərəfəsində siyasi dinamikanın artırılmasına öz töhfəsini verəcək. Görüş sədrin xülasəsi sənədinin qəbulu ilə başa çatacaq.

Eyni zamanda WUF13 çərçivəsində "Urban Expo" sərgisi, beynəlxalq tərəfdaş tədbirləri, akademik sessiyalar, gənclər forumu və müxtəlif tematik müzakirələr keçiriləcək. Forumun mühüm xüsusiyyətlərindən biri də odur ki, burada yalnız problemlər deyil, konkret həllər təqdim olunur. Müxtəlif ölkələrin uğurlu təcrübələri paylaşılır, innovativ şəhər modelləri nümayiş etdirilir və yeni əməkdaşlıq platformaları yaradılır.

Bu mötəbər tədbirin ölkəmizə və bütövlükdə regiona qazandıracağı dividendlər ictimaiyyətin diqqət mərkəzində olan əsas mövzulardandır. İlk növbədə vurğulanmalıdır ki, Bakıda keçiriləcək WUF13 Azərbaycanın dayanıqlı inkişaf və müasir memarlıq sahəsindəki nüfuzunu qlobal müstəvidə daha da möhkəmləndirəcək. Forum respublikamız üçün, sadəcə, imic layihəsi deyil, həm də uzunmüddətli maraqlara xidmət edən strateji addımdır.

Dünyanın müxtəlif ölkələrindən on minlərlə iştirakçını bir araya gətirmək Azərbaycanın diplomatik çəkisini artırmaqla yanaşı, ölkənin qlobal urbanizasiya siyasətinin formalaşmasında aktiv oyunçu olduğunu nümayiş etdirəcək. Bu forum Azərbaycana qabaqcıl dünya təcrübəsini yerli kontekstə inteqrasiya etmək imkanı verəcək. Eyni zamanda işğaldan azad edilmiş torpaqlarımızda sıfırdan qurulan müasir yaşayış məskənlərinin, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının xarici auditoriyaya təqdim olunması üçün unikal fürsət yaradacaq. Bu modern konsepsiyalar və möhtəşəm "Bakı Ağ Şəhər" layihəsi ölkəmizdə həyata keçirilən şəhərsalma siyasətinin parlaq nümunələridir.

Paytaxtımız artıq uzun illərdir ki, qlobal siyasi, humanitar və ekoloji məsələlərin müzakirə olunduğu mötəbər bir məkandır. WUF13 də Azərbaycanın regionda dialoq mərkəzi statusunu təsdiqləyəcək. Birləşmiş Millətlər Təşkilatının bu forumu ölkəmizdə keçirmək qərarı Azərbaycanın keçdiyi nadir inkişaf yolunun beynəlxalq səviyyədə etirafıdır. Bakı dünya miqyaslı tədbirlərin mərkəzi kimi özünü çoxdan təsdiqləyib. WUF13 bu statusu bir az da gücləndirəcək. Forum çərçivəsində Bakıda qəbul ediləcək qərarlar və formalaşacaq yeni tərəfdaşlıqlar bəşəriyyətin bu sahə üzrə yol xəritəsini müəyyən edəcək. Bu prosesdə isə Azərbaycan qlobal gündəliyə töhfə verən aktiv və güclü siyasi aktor kimi çıxış edir.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# WUF13 nəqliyyat xidmətləri artıq istifadəyə verilib

**15 may 2026-cı il tarixindən etibarən Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası (WUF13) çərçivəsində iştirakçıların tədbir məkanına rahat, təhlükəsiz və fasiləsiz hərəkətini təmin etmək məqsədilə WUF13 nəqliyyat sistemi tam şəkildə fəaliyyətə başlayıb.**




WUF13 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumata görə, WUF13 iştirakçıları hava limanı, nəqliyyat mübadilə mərkəzləri, qonaqlama əraziləri və WUF13 tədbir məkanı arasında əlaqəni təmin edən inteqrasiya olunmuş nəqliyyat xidmətlərindən yararlana bilərlər.

WUF13 Hava Limanı avtobus xidməti 12-25 may tarixlərində günün 24 saatı fasiləsiz fəaliyyət göstərəcək. Şəhərdaxili avtobus xidmətləri 15-22 may tarixlərində iştirakçıların istifadəsində olacaq. K1 xüsusi avtobus xətti isə 14-23 may tarixlərində Koroğlu nəqliyyat qovşağı ilə WUF13 tədbir məkanı arasında birbaşa nəqliyyat əlaqəsini təmin edəcək.

WUF13 nəqliyyat sistemi çərçivəsində W1-Şıx, W2-İçərişəhər, W3-Nəriman Nərimanov, W4-İzmir, W5-28 May, W6-Gənclik, W7-Ağ Şəhər və W8-Sea Breeze marşrutları əsas qonaqlama əraziləri ilə nəqliyyat mübadilə mərkəzləri arasında əlaqəni təmin edir.

Bununla yanaşı, W9-Badamdar marşrutu yaxınlıqdakı hotelləri İçərişəhər nəqliyyat mübadilə mərkəzi ilə, W10-Mikayıl Əliyev marşrutu isə qonaqlama məkanlarını birbaşa WUF13 tədbir məkanı ilə əlaqələndirir.

WUF13 çərçivəsində təşkil olunan bütün nəqliyyat xidmətləri akkreditasiyadan və qeydiyyatdan keçmiş iştirakçılar üçün ödənişsizdir.

Qeyd edək ki, yerində qeydiyyat üçün tədbir məkanına gələcək iştirakçılar da bu xidmətlərdən ödənişsiz istifadə edə biləcəklər.

***"Azərbaycan"***

# Bakı şəhərsalma sahəsində qlobal miqyaslı ən böyük sərgiyə evsahibliyi edəcək

**Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) əsas platformalarından biri - "Urban Expo" sərgisi miqyasına görə WUF tarixinin ən böyük sərgisi olacaq.**




AZƏRTAC xəbər verir ki, 3,5 hektarlıq sərgi sahəsini əhatə edəcək sərgi Bakı Olimpiya Stadionunu mənzil həlləri, innovasiya və əməkdaşlığın qlobal nümayişi məkanına çevirəcək. Sərgidə dünyanın müxtəlif ölkələrindən 217 təşkilat iştirak edəcək, 66 ölkə isə milli pavilyonlarla təmsil olunacaq.

"Urban Expo" çərçivəsində milli pavilyonlar, icmaəsaslı təşəbbüslər, startap innovasiyaları və yeni yaradılmış Biznes və İnnovasiya Mərkəzi təqdim ediləcək. Burada mənzil təminatı, iqlim dayanıqlılığı, əlçatanlıq və inklüziv şəhər inkişafı sahələrində praktik yanaşmalar nümayiş etdiriləcək.

Sessiya çərçivəsində öyrənmə, əməkdaşlıq və praktiki fəaliyyətlərin gücləndirilməsi məqsədilə üç yeni imkan da təqdim olunacaq.

WUF Akademiyası akademik dairələri, tədqiqatçıları və peşəkarları bir araya gətirərək öyrənmə və təcrübə mübadiləsi üçün xüsusi platforma rolunu oynayacaq.

Biznes və İnnovasiya Mərkəzi şəhər dəyər zəncirinin müxtəlif istiqamətlərində liderliyi, innovativ yanaşmaları və praktik mənzil həllərini ön plana çıxaracaq.

Yeni Təcrübələr Mərkəzində isə mənzil və şəhər inkişafı sahəsində dünyada tətbiq olunan real təcrübələr və miqyaslana bilən həllər nümayiş etdiriləcək.

Qeyd edək ki, bu yeni məkanlar ideyaların, biliklərin və tərəfdaşlıqların birləşdirilməsi yolu ilə mənzil və dayanıqlı şəhərləşmə sahəsində fəaliyyətin sürətləndirilməsinə töhfə verəcək.

# *Gürcü politoloq Badri NAÇKEBİA:* "Azərbaycan beynəlxalq tədbirlərin keçirilməsi üçün mühüm mərkəzə çevrilib"

**"Azərbaycan beynəlxalq tədbirlərin keçirilməsi üçün mühüm mərkəzə çevrilib. Azərbaycanın BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyi etməsi mühüm nailiyyətdir".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Suxumi Dövlət Universitetinin professoru politoloq Badri Naçkebia deyib.

Onun sözlərinə görə, BMT-nin himayəsi ilə keçirilən bu tədbir yalnız şəhərsalma, ekologiya və ətraf mühit məsələlərinin müzakirəsi platforması deyil, eyni zamanda Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi və daha etibarlı tərəfdaşa çevrilməsi baxımından da əhəmiyyətlidir.

Politoloq deyib ki, bu gün urbanizasiya bütün dövlətləri narahat edən məsələlərdəndir. Azərbaycan bu tədbirə evsahibliyi etməklə həm beynəlxalq təcrübəni öyrənəcək, həm də işğaldan azad olunmuş ərazilərdə şəhərsalma ilə bağlı həyata keçirdiyi layihələri nümayiş etdirəcək.

Badri Naçkebia deyib ki, Gürcüstan da urbanizasiya məsələsində maraqlı tərəf kimi çıxış edə bilər. Bu sahədə Azərbaycan ilə Gürcüstan arasında da əməkdaşlığın genişləndirilməsi vacibdir. Düşünürəm ki, bu tədbirdən sonra ölkələrimiz arasında bu sahədə də mükəmməl əməkdaşlıq olacaq.

# *Aleksandr STUDNEV:* "WUF13 Belarus təcrübəsinin təşviqi baxımından mühüm platforma olacaq"

**"Ümumdünya Şəhərsalma Forumu şəhərsalma, dayanıqlı urbanizasiya, müasir memarlıq və mənzil siyasəti sahələrində ən böyük qlobal platformadır. Forum hökumətlərin, beynəlxalq təşkilatların, peşəkar icmaların, akademik dairələrin və biznes nümayəndələrini təhlükəsiz, rahat və davamlı şəhər mühitinin inkişafı üçün birgə həllər hazırlamaq məqsədilə bir araya gətirir".**



Bu barədə AZƏRTAC-a Belarus Respublikasının memarlıq və tikinti naziri Aleksandr Studnev bildirib.

O vurğulayıb: "Hamı üçün mənzil: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" mövzusu urbanizasiya, innovativ tikinti texnologiyalarının tətbiqi və əhali üçün əlverişli mənzil təminatı ilə bağlı dövrümüzün əsas problemlərini əks etdirir.

Forum Belarusun təcrübəsinin təşviqi və beynəlxalq peşəkar əməkdaşlığın gücləndirilməsi üçün mühüm platforma olacaq".

Nazir qeyd edib ki, Belarusun Ümumdünya Şəhərsalma Forumunda iştirakı onun ölkəsinin davamlı inkişaf, beynəlxalq əməkdaşlıq və vətəndaşlarının həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş konstruktiv dövlət siyasəti prinsiplərinə sadiqliyini təsdiqləyir.

# "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş virtual sərgi hazırlanıb

AMEA Mərkəzi Elmi Kitabxanasında (MEK) şəhərsalma ənənələri, qədim yaşayış məskənləri, tarixi abidələr və müasir urbanistik inkişaf tendensiyalarının təbliği, eləcə də bu istiqamətdə nəşr olunmuş elmi ədəbiyyatın geniş auditoriyaya çatdırılması məqsədilə "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş virtual sərgi hazırlanıb.

MEK-dən AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Ümummilli Lider Heydər Əliyevin memarlıq haqqında dəyərli fikirləri, Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamı, Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13), tarixi abidələr, müasir memarlığın əsas nümunələri, görkəmli memarlar haqqında məlumatlar öz əksini tapıb.

Sərgidə Azərbaycan memarlıq məktəbinin müxtəlif dövrlərini əhatə edən elmi monoqrafiyalar, ensiklopedik nəşrlər, albomlar, memarlıq tədqiqatları, şəhərsalma layihələri və tarixi-mədəni irsə dair ingilis, rus, alman, türk və başqa dillərdə nəşrlər nümayiş olunur.

Nəşrlər sırasında "Heydər Əliyev və Bakının memarlığı", "Memarlıq və şəhərsalma. Ensiklopedik lüğət", "Qərbi Azərbaycan abidələri", "Memarlıq, şəhərsalma tarixi və bərpası", "Avroviziya Bakıda", "Stone guards (Daş keşikçilər)", "Orta əsrlər Azərbaycan memarlıq məktəblərinin əlaqələri", "Azərbaycan memarlığı XIX əsrin sonu - XXI əsrin əvvəli", "Mədəniyyətlərin beşiyi: Təbriz", "Tovuz memarlığı", "İçərişəhər", "Füzuli", "Naxçıvan memarlıq məktəbi", "Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində", "Azərbaycanın memarlıq abidələri", "Şərq memarlığı ənənələri", "Bakı memarları" və başqaları yer alıb.

Bundan əlavə, MEK-in sərgi salonunda ənənəvi kitab sərgisi də təşkil edilib. İlboyu davam edəcək sərgi geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Nəşrlərdən memarlıq və şəhərsalma sahəsində çalışan mütəxəssislər, tədqiqatçılar, müəllim və tələbələr, həmçinin milli-mədəni irsimizə maraq göstərən bütün oxucular yararlana bilərlər.

# WUF13-lə bağlı Bakı metrosunda iş rejimi gücləndiriləcək

**Mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə əlaqədar "AZCON Holding" şirkətlərindən olan "Bakı Metropoliteni" QSC-də gücləndirilmiş iş rejimi tətbiq olunacaq.**




QSC-dən AZƏRTAC-a bildirilib ki, paytaxtda keçiriləcək mədəni-kütləvi tədbirlər və əməliyyat planına uyğun olaraq, sərnişin axınının təhlükəsiz və fasiləsiz idarə olunması məqsədilə qatarların hərəkət qrafikində dəyişikliklər ediləcək.

"Belə ki, tədbirin ilk günü - mayın 17-si qeyri-iş gününə təsadüf etsə də, qatarların hərəkəti şənbə günü qrafikinə uyğun təmin olunacaq. Həmin gün metronun "28 May-Əhmədli" stansiyaları və əks istiqamətdə interval 2 dəqiqə 30 saniyə təşkil edəcək. Sessiyanın digər günlərində isə qatarlar ənənəvi iş günü qrafikinə uyğun, texniki cəhətdən mümkün olan ən sıx hərəkət rejimində fəaliyyət göstərəcək. "28 May-Əhmədli" sahəsində interval 1 dəqiqə 45 saniyə olacaq. Bənövşəyi xətdə, həmçinin "Əhmədli-Həzi Aslanov" və "Cəfər Cabbarlı-Xətai" məkik hərəkət mənzillərində qrafik dəyişdirilməyəcək", - deyə qurumun yaydığı məlumatda bildirilir.

Bundan başqa, sərnişin sıxlığının operativ tənzimlənməsi məqsədilə ehtiyat qatarlar da hazır vəziyyətdə saxlanılacaq.

Qeyd edək ki, WUF13 günlərində Bakı metropolitenində könüllülər də fəaliyyət göstərəcəklər. Ümumilikdə 56 könüllü 9 stansiyada növbəli rejimdə (07:00-15:00 və 15:00-22:00) çalışaraq sərnişinlərə, tədbir iştirakçılarına dəstək olacaqlar.

Ümumdünya Şəhərsalma Forumu




13-cü Ümumdünya Şəhərsalma Forumu




WORLD URBAN FORUM

# Bu günlər Bakının nəbzi WUF13-lə döyünür

**Ölkəmizin paytaxtı sabahdan başlayaraq 6 gün ərzində dünyanın ən mühüm şəhərsalma platformalarından biri hesab olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi edəcək. Artıq 180 ölkədən 32 mindən çox iştirakçının qeydiyyatdan keçməsi rekord göstərici kimi qiymətləndirilir. Bu fakt Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş və beynəlxalq dialoq məkanı olduğunu bir daha təsdiqləyir.**




Son illər ölkəmiz qlobal təşəbbüslərin fəal iştirakçısına çevrilib. Respublikamızın müxtəlif bölgələrində təşkil olunan beynəlxalq tədbirlər Azərbaycanın müasir infrastruktura və yüksək təşkilatçılıq imkanlarına malik olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyevin ötən ilin oktyabrında keçirilmiş III Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına müraciətində vurğuladığı kimi, WUF13-ün Bakıda keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir: "Bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcəkdir".

Məlum həqiqətdir ki, Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Burada minilliklər boyu davam edən sivilizasiyanın inkişafının izlərini görmək mümkündür. Bəşər övladının ilk yaşayış yeri, məişəti barədə aydın təsəvvür yaradan Azıx mağarası, Qobustan qayaüstü rəsmləri və digər qədim abidələrdən başlayaraq sonrakı dövrlərdə salınmış bənzərsiz şəhərlər, inşa olunmuş möhtəşəm tikililər Azərbaycan xalqının iqtisadi inkişafından, mənəvi zənginliyindən xəbər verir.

Bu gün ölkəmizdə "Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirilən işlər heyrətamizdir. Vətən müharibəsindən sonra Qarabağa və Şərqi Zəngəzura yolu düşənlər orada erməni vandalizmi nəticəsində xarabalığa çevrilmiş yurd yerlərimizi görə bilərlər. Bu gün isə Azərbaycan dövlətinin qətiyyəti sayəsində Qarabağda və Şərqi Zəngəzurda həyat yenilənir, canlanır. İndi elə bir gün yoxdur ki, keçmiş məcburi köçkünlər daimi yaşamaq üçün yenidən qurulan əzəli yurdlarına dönməsinlər.

Yeri gəlmişkən qeyd edək ki, forum çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma modeli beynəlxalq ictimaiyyətə təqdim olunacaq. Tədbirdə "ağıllı şəhər", "ağıllı kənd", dayanıqlı urbanizasiya və "yaşıl enerji" layihələri qabaqcıl nümunə kimi nümayiş etdiriləcək.

Bu da təsadüfi deyil ki, Azərbaycanın şəhərsalma modelinin təqdimatında Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq layihələri mühüm rol oynayır. İşğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, müasir infrastrukturun qurulması və "yaşıl enerji" zonalarının yaradılması ölkənin urbanizasiya sahəsində yeni model ortaya qoyduğunu göstərir. Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının istifadəyə verilməsi regionun sürətli inkişafının göstəricilərindəndir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirilən quruculuq prosesi təkcə şəhərsalma və infrastrukturun inkişafı deyil, regionda uzunmüddətli sülh və əməkdaşlığın qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır və şəhərlərin dayanıqlı inkişafına xidmət edir.

Xəbər verildiyi kimi, mayın 13-də Bakı sakinləri və qonaqlar arasında WUF13 barədə məlumatlılığın artırılması məqsədilə festival keçirilib. İctimai proqram çərçivəsində geniş auditoriyaya interaktiv fəaliyyətlər, maarifləndirici oyunlar, təqdimatlar və ictimai müzakirələr vasitəsilə dayanıqlı şəhər inkişafı, inklüziv şəhər mühiti, innovativ şəhər həlləri və gələcəyin şəhərləri kimi mövzular çatdırılıb. Bakıda keçirilən ictimai proqram WUF13 Festivalının ölkənin müxtəlif şəhərlərində təşkil olunan tədbirlər silsiləsinin yekun mərhələsi idi.

Ölkəmizdə keçirilən digər möhtəşəm tədbirlərdə olduğu kimi, WUF13-də də könüllülər fəal iştirak edəcəklər. Onlar da foruma hazırdırlar - tədbir məkanı, əməliyyat prosesləri, təhlükəsizlik prosedurları, departamentlər üzrə fəaliyyət istiqamətləri, eləcə də tədbir günlərində tətbiq olunacaq əsas qayda və təlimatlarla tanış olublar. Bir qismi isə aidiyyəti fəaliyyət istiqamətləri üzrə vəzifələrin icrasına dəstək göstərməyə də başlayıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## *Çinli ekspert:* "Azərbaycanın şəhərsalma sahəsindəki nailiyyətlərinin öyrənilməsi bir neçə aspektdən vacibdir"

**"Azərbaycan böyük tarixə və çox vacib strateji mövqeyə malik bir ölkədir. Mən Azərbaycanda olmasam da, araşdırmalar aparmaq və təcrübə mübadiləsi aparmaq üçün oraya getməyə çox həvəsliyəm, həmçinin azərbaycanlı həmkarlarımla da mübadilələr aparmışam. Azərbaycan haqqındakı anlayışıma əsasən düşünürəm ki, Azərbaycanın şəhərsalma sahəsindəki nailiyyətlərinin və əsas məqamlarının qəbul edilməsi və öyrənilməsi bir neçə aspektdən vacibdir".**




Bu fikirləri AZƏRTAC-a açıqlamasında Çinin Cənub-Şərq Universitetinin Arxitektura və şəhərsalma fakültəsinin professoru, Çin Şəhərsalma Cəmiyyətinin sənaye parklarının planlanması qərargahının rəhbəri Van Sinpin bildirib.

O, Azərbaycanda yeni sənaye texnologiyalarının dəstəyi ilə şəhər-kənd inkişafının strukturunun və səviyyəsinin balanslaşdırıldığını, bu amilin həm şəhər, həm də kənd yerlərinin müvafiq inkişafa nail olmasına imkan verdiyini deyib. "Yaxşı şəhər-kənd əlaqələri qurularsa və daha müsbət şəhər-kənd strukturu formalaşarsa, bu çox perspektivli inkişaf göstərəcək və oxşar ölkələr üçün model ola bilər. Başqa sözlə, dünyamız yalnız yüksək dərəcədə şəhərləşmiş və qütbləşmiş bölgələrdən ibarət deyil; eyni zamanda nisbətən balanslaşdırılmış şəhər-kənd inkişafı üçün bir plan araşdırmaq mümkündür və hazırda Azərbaycan bu xüsusiyyəti təqdim edir", - deyə çinli ekspert bildirib.

Azərbaycanın zəngin mədəni irsini qorunmasına xüsusi diqqət ayırdığını bildirən professor əlavə edib ki, Azərbaycanın böyük tarixi və unikal yerləşməsi müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qarşılıqlı əlaqədə olmasına və inteqrasiyasına imkan verib, çox zəngin və fərqli mədəni sərvətlər yaradıb. Azərbaycan dövləti buna böyük əhəmiyyət verir və mədəni irsin qorunması digər ölkələr üçün istinad və model kimi xidmət edə bilər.

Çinli ekspert Azərbaycanda yaşıl və aşağıkarbonlu inkişaf, eləcə də süni intellekt (AI) kimi yeni texnologiyaların və konsepsiyaların yaşayış məntəqələrinin inkişafı və idarəçiliyində tətbiqinə xeyli diqqət yetirildiyini vurğulayıb.

"Azərbaycan qlobal geosiyasi mənzərədə çox unikal və mühüm strateji mövqe tutur, müxtəlif regional ərazilər də daxil olmaqla Şərq və Qərb sivilizasiyaları arasında mühüm bir əlaqə rolunu oynayır. Biz bilirik ki, İpək yolunun müxtəlif marşrutları var və onlardan biri Azərbaycandan keçir - Trans-Xəzər dəhlizi adlandırdığımız yol", - deyə çinli ekspert əlavə edib ki, əgər bu dəhliz rəvan fəaliyyət göstərə bilsə, mövcud geosiyasi münaqişələrin həllində, ölkələr və sivilizasiyalar arasında əlaqələrin gücləndirilməsində mühüm rol oynayacaq. Üstəlik, bu, Azərbaycanda şəhərsalma və urbanizasiyanı daha yüksək səviyyəyə qaldıracaq.

"Mən inanıram ki, bu aspektlər Azərbaycanın digər ölkələr tərəfindən öyrənilə biləcək nailiyyətləri və xüsusiyyətləridir. Onlar Azərbaycanda şəhərsalmanın keyfiyyətinin daha da yaxşılaşdırılması üçün mühüm təkan verir", - deyə professor Van Sinpin bildirib.

## "AYNA MaaS"a WUF13 funksiyası əlavə olunub

**Mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü (WUF13) Sessiyası ilə əlaqədar "AYNA MaaS" mobil tətbiqinə yeni funksiya əlavə olunub.**




Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən AZƏRTAC-a bildirilib ki, qonaqlar və tədbir iştirakçıları tətbiqdə WUF13 funksiyasını aktivləşdirməklə sessiyanın keçiriləcəyi günlərdə səyahətlərini daha asan və rahat edə bilərlər.

İstifadəçilər xəritədə xüsusi WUF13 dayanacaqlarını görə və seçdikləri dayanacaqlar üçün avtobusların gəliş vaxtlarını real zaman rejimində izləyə bilərlər.

Həmçinin "Gedəcəyiniz yer" bölməsində "Bakı Olimpiya Stadionu"na daxil olaraq məkana səyahəti planlaşdırmaq mümkündür.

# Şəki-Zaqatala bölgəsi WUF13 ərəfəsində xarici turistlərin diqqət mərkəzindədir - sifarişlərin sayında artım var

**Bakının evsahibliyi edəcəyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində ölkəmizə gələcək çoxsaylı xarici qonaqların yüksək səviyyədə qarşılanması məqsədilə regionlardakı turizm obyektləri həm infrastruktur, həm də xidmət baxımından hazır vəziyyətə gətirilib.**






Xüsusilə strateji turizm marşrutları üzərində yerləşən hotel və ictimai iaşə müəssisələrində xidmət keyfiyyətinin beynəlxalq standartlara çatdırılması istiqamətində kompleks tədbirlər görülüb. Bu cür beynəlxalq miqyaslı tədbirlərin Azərbaycanda təşkili regionlarda infrastrukturun modernləşməsinə və xidmət sektorunun keyfiyyətcə yeni mərhələyə keçməsinə birbaşa təkan verir. Sözügedən proses təkcə xarici nümayəndə heyətlərinin deyil, həm də daxili turistlərin regionlara axınını stimullaşdırır ki, bu da yerli iqtisadiyyatın "qan damarları" hesab olunan kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətini əhəmiyyətli dərəcədə canlandırır. Hazırda bu müsbət iqtisadi dinamikanın və xidmət sektorundakı canlanmanın ən aydın hiss olunduğu bölgələrdən biri də zəngin turizm potensialı ilə seçilən Şəki-Zaqatala iqtisadi rayonudur.

Dövlət Turizm Agentliyinin Şəki Regional Turizm İdarəsinin rəisi Şahin Məlikov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, Şəki-Zaqatala bölgəsi özünün qədim tarixi memarlığı, bənzərsiz təbiəti və zəngin mətbəxi ilə həm yerli, həm də xarici turistlər üçün Azərbaycanın ən cəlbedici istiqamətlərindən biri hesab olunur. UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş abidələr və inkişaf etmiş müasir hotel infrastrukturu regionun beynəlxalq turizm xəritəsindəki mövqeyini hər ötən gün daha da möhkəmləndirir. Bu potensialın səmərəli reallaşdırılması nəinki bölgənin iqtisadi canlanmasına, həm də milli-mədəni dəyərlərimizin qlobal miqyasda təbliğinə əvəzsiz töhfə verir.

"Şəki-Zaqatala bölgəsinin malik olduğu bu geniş potensial və mövcud hazırlıq səviyyəsi qarşıdakı günlərdə regiona xeyli sayda yerli və xarici turistin gələcəyini deməyə əsas verir", - deyə Şahin Məlikov fikrini tamamlayıb.

Şəkinin qədim memarlıq üslubunu qoruyub saxlayan tarixi məkanlardan birində fəaliyyət göstərən hotelin meneceri Ruhiyyə Rəhimova deyir ki, WUF13-lə əlaqədar olaraq regiona maraq çoxalıb və son günlər xüsusilə Avropa, Asiya, eləcə də Körfəz ölkələrindən gələn əcnəbi qonaqların sayında ciddi artım müşahidə olunur. Onun sözlərinə görə, qonaqlama xidməti ilə yanaşı, əcnəbi turistlərin asudə vaxtının səmərəli təşkili üçün Şəkinin çoxəsrlik tarixi, özünəməxsus mədəniyyəti və dünyaşöhrətli ipəkçilik sənəti ilə yaxından tanışlıq məqsədilə xüsusi infoturlar da təşkil edilir.

Turizm sahəsi üzrə ekspertlərin rəylərinə əsasən, bu günlərdə Qəbələ və Şəkidə fəaliyyət göstərən əksər hotel, hostel və qonaq evlərinə sifarişlərin sayında artım qeydə alınıb. Bölgədə yerləşən iri istirahət mərkəzlərindən birinin meneceri Əşrəf Əşrəfzadə vurğulayır ki, həftənin ilk günlərindən etibarən xarici ölkələrdən gələn turistlərin sayında dinamik yüksəliş müşahidə olunur və forumun aktiv fazasında bu göstəricinin daha da artacağı gözlənilir.

Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etməsi ölkə miqyasında infrastrukturun modernləşdirilməsi və xidmət şəbəkəsinin yenilənməsi üçün əlverişli zəmin yaradır. Xarici nümayəndə heyətlərinin və turistlərin bölgələrə səfərləri regionlardakı hotel, istirahət mərkəzi və qonaq evlərinin fəaliyyətini canlandırmaqla yanaşı, bu müəssisələrin iqtisadi rentabelliyini əhəmiyyətli dərəcədə artırır. Bu prosesin ən strateji üstünlüyü isə milli-mədəni irsimizin və qədim ənənələrimizin qlobal miqyasda təbliğidir. Beynəlxalq forumlar və festivallar çərçivəsində nümayiş etdirilən yerli mədəniyyət elementləri, zəngin kulinariya və xalq sənətkarlığı nümunələri regionların beynəlxalq səviyyədə bir "turizm brendi" kimi tanınmasına da yol açır. Beləliklə, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər regionların həm iqtisadi, həm də mədəni ekosisteminin davamlı inkişafına da birbaşa töhfə verir.

## WUF13 zamanı tibbi xidmətlərin fasiləsiz təşkili təmin olunacaq

**"Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə əlaqədar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində xidmətlərin fasiləsiz təşkili məqsədilə zəruri hazırlıq işləri görülüb".**

Bu barədə AZƏRTAC-a TƏBİB-dən məlumat verilib.

Bildirilib ki, tədbirin keçirildiyi müddətdə xüsusilə 4 tibb müəssisəsi, o cümlədən Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi gücləndirilmiş iş rejimində çalışacaq.

Mümkün tibbi ehtiyaclar nəzərə alınaraq Yeni Klinikanın Təcili və təxirəsalınmaz tibbi yardım, uşaq təcili və təxirəsalınmaz tibbi yardım şöbəsi, Reanimasiya şöbəsi və əməliyyatxana tam hazır vəziyyətə gətirilib. Eyni zamanda yoluxucu xəstəliklərlə bağlı Sabunçu Tibb Mərkəzinin nəzdində fəaliyyət göstərən Məhəmmədi Modul Tipli Xəstəxanasında, yanıq xəsarətləri üzrə Mərkəzi Neftçilər Xəstəxanasında və zəhərlənmə halları ilə bağlı Kliniki Tibbi Mərkəzdə müvafiq çarpayı fondu ayrılıb.

Tibb müəssisələrində istifadə olunacaq tibbi avadanlıq, dərman preparatları və tibbi ləvazimatlara olan ehtiyac əvvəlcədən müəyyənləşdirilərək tam təmin edilib. Həmçinin WUF13 ilə əlaqədar Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi tərəfindən növbəlilik əsasında 75 briqada və 35 təcili tibbi yardım avtomobili ayrılıb.

WUF13 çərçivəsində ayrılmış hotellər və tədbirin keçirildiyi ərazilərdə təcili və təxirəsalınmaz tibbi yardım briqadaları fasiləsiz fəaliyyət göstərəcək. Təcili tibbi yardım xidmətinin fasiləsiz fəaliyyətinin təmin olunması məqsədilə ehtiyat nəqliyyat vasitələrinin ayrılması da nəzərdə tutulub.

Bununla yanaşı, təcili və təxirəsalınmaz tibbi yardım xidmətində iştirak edən heyət (həkim, orta tibb işçisi və sürücü) üçün təməl və təkmil həyat dəstəyi üzrə təlimlər təşkil edilib. Eyni zamanda WUF13 Azərbaycan Əməliyyat Şirkətinin əməkdaşları və könüllüləri üçün də ilkin tibbi yardım mövzusunda təlim keçirilib. Təlim proqramları iştirakçıların fövqəladə hallarda düzgün və operativ müdaxilə bacarıqlarının artırılmasına yönəlib. Təlim zamanı iştirakçılara həyati təhlükə yaradan halların ilkin qiymətləndirilməsi, ürək-ağciyər reanimasiyasının aparılması qaydaları, qanaxmaların dayandırılması və travmalar zamanı ilkin tibbi yardımın göstərilməsi qaydaları üzrə praktiki biliklər verilib.

# Londonda "Tağıyev: Neft" bədii filminin təqdimatı olub









**Londonda görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətindən bəhs edən "Tağıyev: Neft" bədii filminin təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, Londonun mərkəzində yerləşən Britaniya Film və Televiziya Sənətləri Akademiyasının (BAFTA) möhtəşəm "Princess Anne Theatre" zalında keçirilən təqdimatda Bakı Media Mərkəzinin rəhbəri və filmin baş prodüseri Arzu Əliyeva, prodüser Orman Əliyev, rejissor Zaur Qasımlı, Xalq artisti Pərviz Məmmədrzayev, Gürcüstan, Türkiyə, Özbəkistan və digər dövlətlərin səfirləri və diplomatik korpusun digər çoxsaylı nümayəndələri, Britaniya Xarici İşlər Nazirliyinin əməkdaşları, Britaniya parlamentinin Lordlar Palatasının üzvləri, "City of London", Millətlər Birliyi, Avropa Yenidənqurma və İnkişaf Bankı və sair təşkilatların nümayəndələri, BP şirkətinin təmsilçiləri, ictimai-siyasi xadimlər, Britaniyada yaşayan Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Film Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyinin dəstəyi, "Neqsol Holding", "Kapital Bank", "Bakcell" və "Norm" şirkətlərinin sponsorluğu ilə Bakı Media Mərkəzi tərəfindən istehsal olunub. Ekran əsəri "Tağıyev" çoxseriyalı layihəsinin birinci hissəsidir. Filmdə XIX əsrin sonları-XX əsrin əvvəllərində Bakıda neft bumu kontekstində Hacı Zeynalabdin Tağıyevin sadə bənnadan nüfuzlu neft sənayeçisinə qədər uzanan həyat yolu təsvir olunur.

Tədbirdə çıxış edən Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov Hacı Zeynalabdin Tağıyevin Azərbaycanın iqtisadi və mədəni həyatında oynadığı mühüm rolundan bəhs edib, bu yolda üzləşdiyi çətinliklər və keçdiyi sınaqların onu öz yolundan döndərmədiyini söyləyib. Səfir Tağıyevin ən böyük arzularından birinin təhsilin inkişafı və müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbinin yaradılması olduğunu xüsusi vurğulayıb.

Tarixin müxtəlif dövrlərində Azərbaycan xalqının həyatında mühüm rol oynamış görkəmli şəxsiyyətlərin olduğuna diqqət çəkən səfir Elin Süleymanov bir neçə gün əvvəl Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünün qeyd olunmasından, Ulu Öndərin ötən əsrin sonlarına yaxın Azərbaycanın ağır böhranlardan çıxaraq sabit inkişaf yoluna qədəm qoymasında həlledici və əvəzolunmaz rolundan danışıb.

Filmin Londondakı təqdimat mərasimində iştirak edən qonaqlar ekran əsəri barədə xoş təəssüratlarını bölüşüblər. Onlar layihəni yüksək keyfiyyətdə ərsəyə gətirən Bakı Media Mərkəzinin yaradıcı komandasını ürəkdən alqışlayaraq filmin Azərbaycan və onun tarixi, mədəniyyəti, dəyərləri, inkişaf yolu haqqında olduqca maraqlı məlumatlar ötürdüyünü bildiriblər. Qonaqlar bu kimi layihələrin Azərbaycanın dünyaya tanıdılmasında böyük rola malik olduğunu, Hacı Zeynalabdin Tağıyevin, əslində, Azərbaycan xalqına məxsus humanistlik, xeyirxahlıq, səxavətlilik, dözümlülük, mərdlik kimi xüsusiyyətləri özündə birləşdirdiyini vurğulayıblar.

Xalq artisti Pərviz Məmmədrzayev AZƏRTAC-a açıqlamasında filmin Rusiyada və ABŞ-nin Los-Anceles şəhərində nümayişindən sonra Londonda təqdimatının keçirilməsinin sevindirici olduğunu bildirib. Onun sözlərinə görə, film auditoriya tərəfindən böyük maraqla qarşılanıb və yaradıcı heyət çoxsaylı təbriklər alıb.

# IDEA Kür çayı sahilində ənənəvi təmizlik aksiyası təşkil edib

**IDEA İctimai Birliyinin təşəbbüsü ilə Kür çayının sahilində və Xəzər dənizinə qovuşduğu ərazidə ənənəvi təmizlik aksiyası təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakultura Mərkəzinin dəstəyilə Neftçala rayonu ərazisində keçirilən aksiyada IDEA könüllüləri iştirak ediblər.

Sanitar normalara uyğun ləvazimatlar və xüsusi qayıqlarla təchiz olunmuş könüllülər Kür çayını və onun sahillərini müxtəlif məişət tullantıları və balıqların kütləvi tələfinə səbəb olan sintetik balıqçılıq torlarından və balıqların təbii mühitdə inkişafının qarşısını alan, kustar üsulla hazırlanmış, istifadəsi qanunla qadağan edilmiş digər alətlərdən təmizləyiblər. Nəticədə bir tona yaxın tullantı toplanaraq Neftçala rayonunun tullantılar poliqonuna təhvil verilib.

Çaylara atılan məişət və sənaye tullantılarının artması Kür çayının və Xəzər dənizinin ekoloji vəziyyətinə, eləcə də su hövzələrində canlı aləmin təbii inkişafına mənfi təsir göstərir. Bu baxımdan Kür çayının Xəzər dənizinə qovuşduğu ərazinin təmiz saxlanılması Xəzərin bioresurslarının qorunması və ekoloji tarazlığın təmin edilməsi üçün xüsusi əhəmiyyət daşıyır.

IDEA İctimai Birliyi tərəfindən Xəzər dənizinin bioresurslarının qorunması, sahilyanı ərazilərin təmiz saxlanılması və ictimaiyyət arasında ekoloji məsuliyyət hissinin gücləndirilməsi məqsədilə bu cür təmizlik aksiyaları mütəmadi olaraq həyata keçirilir. Kür çayı sahillərində təşkil edilən bu tədbirlər təbii balansın qorunması, ətraf mühitin sağlamlaşdırılması, çayların mühafizəsi istiqamətində cəmiyyətin səfərbər edilməsi, həmçinin insanlar arasında ekoloji mədəniyyətin və təbiətə qayğı hissinin təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

IDEA İctimai Birliyi hər kəsi təbiətin mühafizəsinə həssas yanaşmağa, sahillərimizin təmizliyinə riayət etməyə və gələcək nəsillər üçün daha sağlam, təmiz və dayanıqlı mühitin formalaşmasına öz töhfəsini verməyə çağırır.

# Cıdır düzü yenə beynəlxalq səhnəyə çevrilib

**Azərbaycanın mədəniyyət paytaxtı Şuşada yenə də çal-çağırdır. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalına bu il Cıdır düzündə "Mənim Azərbaycanım" rəqs kompozisiyası və görkəmli bəstəkar Cahangir Cahangirovun "Cənnətim Qarabağ" əsəri ilə start verilib.**




Açılışda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, tanınmış mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, "Xarıbülbül" Musiqi Festivalı ilk dəfə 1989-cu ildə keçirilib. Həmin ilin mayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayan festival Şuşada davam etdirilib. Yekun konsert isə Ağdamda təşkil olunub. Növbəti ildən "Xarıbülbül" Musiqi Festivalı beynəlxalq status alıb. Festival üçüncü dəfə 1991-ci ildə düzənlənib. Tədbirin 25 ölkədən 300-ə yaxın iştirakçısı olub. O zaman erməni quldurları Qarabağda törətdikləri münaqişəni gündən-günə alovlandırırdılar. Odur ki, əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri isə Bərdə və Ağcabədidə verilib.

O vaxtadək keçirilən tədbirin ən böyüyü "Xarıbülbül" IV Musiqi Festivalı olmalı, 1992-ci il mayın 15-də başlamalı idi. Festivalda dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı nəzərdə tutulmuşdu. Ancaq Birinci Qarabağ müharibəsinin başlaması və Ermənistanın ərazilərimizi, o cümlədən 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etdiyi üçün tədbir ləğv edilib.

Vətən müharibəsindəki tarixi Zəfərimizdən sonra "Xarıbülbül" Musiqi Festivalı yenidən Şuşada düzənlənməyə başlayıb. 2024-cü ildə Şuşa ilə yanaşı, festival Laçın şəhərini də əhatə edib. Bu dostluq və musiqi bayramına dünyanın bir çox ölkəsindən çoxsaylı musiqi kollektivləri və solo ifaçılar qatılıb. ABŞ, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Türkiyə və Yaponiyadan gələn incəsənət xadimləri təkrarsız ifalarla çıxış ediblər.

Yaradıcı gənclərin bacarıq və ideyalarını, o cümlədən milli sənət ənənələrini müasir baxışla təqdim etmələri üçün mühüm platformaya çevrilmiş "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı bu il də ənənələrinə sadiq qalıb. Cıdır düzündə keçirilən konsert proqramında Qarabağ Universitetinin İncəsənət fakültəsinin tələbələri çıxış ediblər. Gənc musiqiçilərin Azərbaycan və xarici bəstəkarların əsərlərindən ibarət rəngarəng musiqi proqramı maraqla qarşılanıb. Konsert dünyaşöhrətli müğənni Müslüm Maqomayevin "Azərbaycan" əsərinin səsləndirilməsi ilə başa çatıb.

Açılışda nümayiş edilən Cefri Verbokun "Şuşa, sevgilim" adlı sənədli filmi də maraqla qarşılanıb. Bu film Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılması baxımından təqdirəlayiq bir layihədir. Eyni zamanda film Azərbaycan xalq musiqisinin vurğunu, muğamlarımızı məharətlə ifa edən amerikalı Cefri Verbokun Ulu Öndər Heydər Əliyevə illər öncə verdiyi vədin yerinə yetirilməsinin rəmzidir. "Şuşa, sevgilim" filmi Azərbaycan muğamını və Qarabağın mədəni irsini dünyaya tanıtmaq, Şuşanı sənət vasitəsilə yaşatmaq məqsədini qarşıya qoyub.

Azərbaycanın qədim və əsrarəngiz şəhəri Şuşa memarlıq inciləri ilə zəngindir. Onlardan birinin - Xan qızı Natəvanın sarayının qarşısında türk musiqi mədəniyyətinə yeni nəfəs gətirən, əsas missiyası türk xalqlarının musiqi vasitəsilə birliyi olan Qazaxıstanın "Turan" Etno-Folk Ansamblının konserti təqdim edilib. Ansambl türk dünyasının musiqisini səsləndirib. Tədbirdə musiqi kollektivi Azərbaycanın "Ay, Laçın" əsərini də ifa edib. Qeyd edək ki, folklor musiqisini muasir tələblərə uyğunlaşdıran kollektiv dünya səhnəsinə çıxarmağa müvəffəq olub. "Turan" dünyanın 122 regionunda 3 minə yaxın solo konsert proqramı ilə çıxış edib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Xan qızı Natəvanın sarayı önündə Azərbaycan bəstəkarlarının əsərləri səslənib

**Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı davam edir. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalın ikinci gününün ilk musiqi təqdimatı Xan qızı Natəvanın sarayının qarşısında keçirilib. Burada Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil olunub.**

"Romans və mahnı səhəri" adlı konsert proqramında görkəmli bəstəkarlar Arif Məlikov, Cahangir Cahangirov, Fikrət Əmirov, Qara Qarayev, Oqtay Kazımi, Süleyman Ələsgərov, Tofiq Quliyev, Üzeyir bəy Hacıbəyli və Vasif Adıgözəlovun sevilən əsərləri səslənib.

Dillər əzbəri olan həmin bəstələri gənc istedadlı musiqiçilər Aqşin Abdullayev, Elnarə Məmmədova, Həmid Abdulov, İsmayıl Zeynalov, Mara Hüseynova ifa ediblər.

İncəsənət xadimləri və tamaşaçılar festival ilə bağlı təəssüratlarını AZƏRTAC-la bölüşüblər. Əməkdar artist Aqşin Abdullayev Şuşada çıxış etməyin onun üçün xüsusi məna daşıdığını vurğulayıb. O bildirib ki, "Xarıbülbül" Musiqi Festivalının Azərbaycanın musiqi beşiyi sayılan Şuşada yenidən keçirilməsi böyük əhəmiyyət kəsb edir. Aqşin Abdullayev torpaqlarımızın azad olunmasından sonra Azərbaycan musiqisinin Xan qızı Natəvanın sarayının önündə səsləndirilməsini tarixi hadisə kimi dəyərləndirib, konsertin yüksək ovqatda keçdiyini qeyd edib.

Müğənni İsmayıl Zeynalov "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında ilk dəfə iştirak etdiyini vurğulayaraq, bu dəvətin onda unudulmaz təəssüratlar yaratdığını diqqətə çatdırıb. Qeyd edib ki, Şuşanın özünəməxsus zəngin atmosferi və təkrarolunmaz koloriti belə mötəbər tədbirlərə xüsusi ruh qatır. İsmayıl Zeynalovun sözlərinə görə, festival həm ifaçılar, həm də tamaşaçılar üçün parlaq və yaddaqalan anlarla zəngindir, Şuşa isə öz tarixi əzəməti ilə bu cür musiqi bayramlarına ən çox yaraşan məkan, əsl sənət məbədidir.

Qarabağ Universitetinin tələbəsi Kənan Mehdizadə də festivalın iştirakçısı olmaqdan böyük məmnunluq duyduğunu ifadə edib. O, zəngin konsert proqramı çərçivəsində Azərbaycan bəstəkarlarının ölməz əsərlərini canlı dinləməyin gənclər üçün unudulmaz və xoş anlar yaşatdığını vurğulayıb. Kənan Mehdizadə bu mötəbər sənət bayramının yüksək səviyyədə təşkilinə görə təşkilatçılara minnətdarlığını çatdırıb.

# Cıdır düzündə qardaş xalqların musiqi və rəqs bayramı



**Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının əsas məqsədlərindən biri mədəni dialoqun inkişafına töhfə vermək və musiqiçilər arasında yaradıcılıq mübadiləsini təşviq etməkdir.**

Budəfəki festival da bu nöqteyi-nəzərdən istisna olmayıb. Zəngin mədəniyyət hadisəsi olan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına Azərbaycan ifaçıları və musiqi kollektivləri ilə yanaşı, digər ölkələrdən də incəsənət nümayəndələri dəvət alıblar.

AZƏRTAC xəbər verir ki, festivalın ikinci gününün Cıdır düzündə keçirilən növbəti musiqi təqdimatında Azərbaycan, Özbəkistan və Türkmənistan Dövlət Rəqs ansambllarının iştirakı ilə konsert proqramı təqdim edilib. Qardaş xalqların milli musiqi və rəqs ənənələrini əks etdirən proqram festivalın beynəlxalq ruhunu və mədəni müxtəlifliyini bir daha nümayiş etdirib və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Konsert proqramında iştirak edən kollektivlər öz ölkələrinin milli rəqslərini və geyimlərini təqdim edərək, Cıdır düzünü əsl musiqi və rəqs bayramına çeviriblər. Müxtəlif ölkələrin mədəniyyətlərini səhnədə bir araya gətirən proqram tamaşaçılara unudulmaz anlar yaşadıb.

Festival iştirakçıları və tamaşaçılar təəssüratlarını AZƏRTAC-la bölüşüblər.

Özbəkistan Dövlət Rəqs Ansamblının rəhbəri Dilfuzakhon Djorabayeva festivalın açılış mərasiminin yüksək səviyyədə təşkil olunduğunu bildirib. Qeyd edib ki, Azərbaycanda onları çox yaxşı qarşılayıblar və çıxışları uğurlu alınıb. Ansambl rəhbərinin sözlərinə görə, Azərbaycan, Özbəkistan və Türkmənistan kollektivlərinin iştirakı ilə keçirilən solo konsert də yaxşı keçib.

Dilfuzakhon Djorabayeva festivalın təşkilatçılarına minnətdarlığını ifadə edərək, Azərbaycana səfərdən çox şad olduqlarını deyib.

Şuşa sakini Aynur Yusufova bir şuşalı kimi "Xarıbülbül" Musiqi Festivalında iştirak etməsinin onda böyük qürur doğurduğunu deyib. Qeyd edib ki, ənənəvi festivalın yenidən hər il Şuşada keçirilməsi qürurverici haldır və bu, şəhərin mədəni həyatının bərpasının göstəricisidir. Aynur Yusufova bu münasibətlə sevinc hisslərini bölüşərək, şəhidlərimizə Allahdan rəhmət diləyib.

Tamaşaçı Aygün İmanova da Şuşada keçirilən "Xarıbülbül" Musiqi Festivalının onda xoş təəssüratlar yaratdığını bildirib. O qeyd edib ki, festival çərçivəsində təqdim olunan konsert proqramını böyük maraqla izləyiblər. Aygün İmanovanın sözlərinə görə, xüsusilə Azərbaycan, Özbəkistan və Türkmənistan rəqs kollektivlərinin çıxışları yaddaqalan olub. O, belə mədəni tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini vurğulayaraq, festivalda iştirak etməkdən məmnunluğunu dilə gətirib.

# "Xarıbülbül" festivalı Səkinə İsmayılova və tələbələrinin konserti ilə başa çatıb

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı başa çatıb.**



AZƏRTAC xəbər verir ki, Şuşada günün ikinci yarısında Xan qızı Natəvanın sarayının qarşısında Xalq artisti Səkinə İsmayılova və tələbələrinin iştirakı ilə konsert proqramı təqdim olunub. Musiqi axşamında "Rast" dəstgahı səsləndirilib. Gənc xanəndələr ustadları ilə birgə fərqli bir muğam axşamı təqdim ediblər. Xatırladaq ki, xalq mahnıları və muğamların ustad ifaçısı Səkinə İsmayılova bu il 70 illik yubileyini qeyd edir.

Konsert proqramının sonunda səsləndirilən "Qarabağ" mahnısı tamaşaçılar tərəfindən ayaq üstə alqışlarla qarşılanıb. Beləliklə, Azərbaycan xalqı üçün həm musiqi, həm də fəlsəfə sayılan muğam ifaları ilə "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalına yekun vurulub.

Festival iştirakçıları təəssüratlarını AZƏRTAC-la bölüşüblər. Xalq artisti Səkinə İsmayılova Şuşada keçirilən festivalda iştirakından məmnunluğunu ifadə edib. Bildirib ki, musiqi qrupu ilə birlikdə gözəl Qarabağın incisi olan Şuşada çıxış etmək onun üçün böyük sevincdir. Xalq artisti qeyd edib ki, bu gün həm də yubileyini Şuşada qeyd etməsi onun sevincini daha da artırıb.

Səkinə İsmayılovanın sözlərinə görə, konsert yüksək ovqatda keçib. O, Natəvanın büstü önündə muğam dəstgahı ilə çıxış etməsinin onda qürur hissi yaratdığını deyib və tamaşaçılara təşəkkürünü çatdırıb.

Beynəlxalq Muğam Mərkəzinin solisti Könül Məmmədli isə "Xarıbülbül" festivalında ilk dəfə iştirak etdiyini bildirib. Qeyd edib ki, Şuşada belə gözəl tədbirlərin keçirilməsi sevindiricidir və sənət adamları bu festivallarda böyük həvəslə iştirak edirlər.

Şuşa sakini Vəsilə Kərimli də doğma şəhərdə keçirilən festivalın sakinlər üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, Şuşaya qayıtdıqları və burada yaşadıqları üçün özlərini xoşbəxt hiss edirlər. Vəsilə Kərimlinin sözlərinə görə, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada silsilə tədbirlərin keçirilməsi şəhərin əvvəlki mədəni həyatını yenidən canlandırır və sakinlər bu tədbirlərdə məmnunluqla iştirak edirlər.

Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçinin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə də öz töhfəsini verir.

# İqtisadiyyat və sosial həyat

## SOCAR və TPAO birgə həyata keçirilən layihələrin icra vəziyyətini dəyərləndirib

**SOCAR-ın prezidenti Rövşən Nəcəf "Türkiye Petrolleri A.O." (TPAO) şirkətinin Xarici layihələr İdarəsinin rəisi Çağrı Şirin və Azərbaycandakı nümayəndəliyinin rəhbəri Halil Buğra Yavuz ilə görüşüb.**

SOCAR-dan bildirilib ki, görüşdə SOCAR ilə TPAO arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub, bu xüsusda, ötən il TPAO şirkətinin "Xəzər dənizinin Azərbaycan sektorundakı Şəfəq-Asiman perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsü haqqında Saziş"ə qoşulmasının əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı şirkətlərin birgə iştirakı ilə həyata keçirilən layihələrin icra vəziyyəti nəzərdən keçirilib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Xarici ticarətdə 2,1 milyard dollarlıqdan çox müsbət saldo

**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-mart aylarında Azərbaycan dünyanın 157 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 107 ölkəyə məhsul ixrac, 145 ölkədən idxal olunmuşdur.**

Hesabat dövründə xarici ticarət dövriyyəsi 10 milyard 147,5 milyon ABŞ dolları təşkil etmiş və 2 milyard 138,1 milyon dollar məbləğində müsbət ticarət saldosu yaranmışdır.

2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə cari ilin eyni dövründə buğda idxalı real ifadədə 29,1, təzə meyvə idxalı 5,7 faiz, avtobus idxalı 2,5 dəfə, qara metallardan boruların idxalı 4,4, hesablama maşınları, blok və qurğuların idxalı 9,8 faiz artmış, şokolad və şokolad məhsullarının idxalı 17, kərə yağı, digər süd yağları və pastaların idxalı 24,9, xam şəkərin idxalı 19, minik avtomobillərinin idxalı 36,2, dərman vasitələrinin idxalı 34,3, polad prokatının idxalı 17,1, ayaqqabıların idxalı 8,1 faiz azalmışdır.

## Yanvar-aprel aylarında pensiyalara 2,6 milyard manat vəsait yönəldilib

**Bu ilin yanvar-aprel aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz (248 milyon manat) çox olmaqla 2 milyard 608 milyon manat vəsait yönəldilib.**

Pensiyalarda artım dinamikası davam edir. Cari ilin əvvəlindən pensiyalar 9,3 faiz indeksləşdirilərək artırılıb və 1 may 2026-cı il tarixə pensiyaların orta aylıq məbləği ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz artaraq 594 manata, o cümlədən yaşa görə orta aylıq pensiyanın məbləği 632 manata çatıb.

Yanvar-aprel ayları ərzində 15 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 193 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Qarabağ və Şərqi Zəngəzur xarici investorlar üçün də cəlbedici regionlardır

**İşğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq, bərpa işlərinin miqyasının ilbəil genişlənməsi və intensivləşməsi investisiya axını baxımından geniş imkanlar açır. Yol, enerji, "ağıllı şəhər", "ağıllı kənd" və infrastruktur layihələrinə qoyulan investisiyalar Qarabağın iqtisadi dirçəlişinə, müasir yaşayış mühitinin formalaşdırılmasına və regionun beynəlxalq iqtisadi əməkdaşlıq məkanına çevrilməsinə təsir göstərir.**



Qarabağda həyata keçirilən genişmiqyaslı yenidənqurma və inkişaf layihələri beynəlxalq biznes dairələrinin də diqqətini cəlb edir. Regionda formalaşdırılan əlverişli biznes mühiti və yeni iqtisadi imkanlar xarici investorların Qarabağa marağını artırdığı üçün bölgədə həyata keçirilən layihələrdə daha fəal iştirak edirlər. Bu istiqamətdə ən fəal iştirak edənlər, sözsüz ki, Türkiyə şirkətləridir. Türkiyə iş adamları azərbaycanlı həmkarları ilə birlikdə Qarabağın yenidən qurulmasında canla-başla iştirak edirlər. İlk addımları Zəfər yolunun tikintisi oldu. Füzuli hava limanının tikintisində də qardaş türklərin əməyi çoxdur. Azərbaycanda fəaliyyət göstərən minlərlə türk şirkətinin 20-dən çoxu Qarabağda müxtəlif layihəni reallaşdırır. Avropadan, Afrikadan Azərbaycana dəvət edilən türk iş adamları bu gün də Qarabağ və Şərqi Zəngəzurda infrastruktur layihələrinin həyata keçirilməsində, mənzil tikintisində, yolların inşasında əllərindən gələni edirlər ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutlanlar tezliklə həyata keçsin.

Xarici ölkə olaraq İtaliyanın şirkətləri də Qarabağın bərpa və quruculuq işlərində öndə gedirlər. Bu ölkənin şirkətləri gördüyü işlərin miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Qarabağın bərpasına töhfə verən ölkələrdən biri də Macarıstandır. Eləcə də Belarus, Çin və digər xarici ölkələrin şirkətləri Qarabağın bərpasında fəal iştirak edirlər. Xarici şirkətlərin azad edilmiş ərazilərin yenidən qurulmasında maraqlı olması onu göstərir ki, ermənilərin faktiki olaraq viran qoyduğu Qarabağ onlar üçün cəlbedicidir.

Beş ildən çoxdur işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri durmadan həyata keçirilir. Artıq müsbət nəticələr də göz qabağındadır. Yenidən salınan yollar, istifadəyə verilən enerji layihələri, inşa olunan yaşayış məntəqələri və müasir infrastruktur Qarabağın simasını dəyişir. Bölgədə aparılan genişmiqyaslı işlər həm keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını sürətləndirir, həm də regionun iqtisadi potensialının yenidən formalaşmasına şərait yaradır. Məhz bu amil xarici şirkətlərin Qarabağa investisiya qoymaq, iqtisadiyyatın formalaşmasında iştirak etmək istəyinə stimul verir.

Xarici şirkətlərin Qarabağda çalışmaq istəyi təbii ki, bölgənin iqtisadi baxımdan imkanlarının geniş olması ilə bağlıdır. Azərbaycan dövlətinin Qarabağda çalışan xarici şirkətlərə kifayət qədər genişmiqyaslı güzəştlər təklif etməsi də marağı artırır. Bölgədə çalışan şirkətlər 10 il müddətinə vergidən azad olunublar.

Xoş haldır ki, Qarabağa investisiya axını gündən-günə artır. Bu, ondan irəli gəlir ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində dayanıqlı məskunlaşmanın təmin olunması, ərazilərin yerli və xarici dəyər zəncirinə inteqrasiyası, investisiyaların cəlb edilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması, kənd təsərrüfatı və turizmin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Sənaye parklarının fəaliyyəti genişləndirilir, vergi və gömrük güzəştləri tətbiq olunur, həmçinin sahibkarların maliyyə imkanlarının artırılması üçün müxtəlif dəstək mexanizmləri həyata keçirilir.

Bu istiqamətdə məqsədyönlü siyasətin nəticələri artıq konkret rəqəmlərdə və artan beynəlxalq maraqda da öz əksini tapır. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Qarabağ Ərazi Vergilər Baş İdarəsinin rəisi Ələkbər Məmmədov ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərdə bərpa, quruculuq işlərinə dövlət büdcəsindən 25 milyard manatdan çox vəsaitin ayrıldığını və bölgəyə investisiya həcminin artdığını bildirib: "Xarici şirkətlərdən daxil olmuş müraciətlər 39 ölkəni əhatə edir. Müraciətlər arasında Türkiyə, İran, Macarıstan, Qazaxıstan və Rusiyadan olan investorların payı daha yüksəkdir. Bu göstərici bölgəyə beynəlxalq marağın artdığını və Qarabağda yaradılan biznes mühitinin investorlar üçün cəlbedici olduğunu nümayiş etdirir. Hazırda xarici investorların iştirakı ilə bir sıra iri layihələr icra olunur. Həyata keçirilən təşəbbüslər çərçivəsində Türkiyənin "Dəmirörən" və "Dost Aqropark", Özbəkistanın "Agro Sonuat İnnovator" şirkəti tərəfindən nar bağlarının salınması, Litvanın "Dominari" mebel klasteri, İsveçrənin "Holcim" sement anbarı, Rusiyanın "KamAZ" xidmət mərkəzi, Pakistanın "Azerbaijan Rice Processing Mill" MMC, eləcə də Belarusun "Agrokombinat Dzerjinski" ASC tərəfindən quşçuluq təsərrüfatının yaradılması kimi layihələr həyata keçirilir. Bu layihələr regionda istehsal və xidmət infrastrukturunun genişləndirilməsinə xidmət edir".

Baş idarənin rəisi vurğulayıb ki, Qarabağ bölgəsində investisiya layihələrinin həyata keçirilməsi yalnız iqtisadi fəallığın artırılmasına deyil, həm də yeni iş yerlərinin yaradılmasına, yerli sahibkarlığın inkişafına və müasir texnologiyaların tətbiqinə şərait yaradır. Xarici tərəfdaşlarla əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr bölgənin istehsal potensialının gücləndirilməsinə mühüm töhfə verir. Bölgədə müəyyən edilmiş prioritet istiqamətlərə uyğun olaraq kənd təsərrüfatı, turizm, emal sənayesi və xidmət sektoru əsas inkişaf sahələri kimi müəyyən edilib. Bu sahələr üzrə layihələrin icrası Qarabağın iqtisadi inteqrasiyasını sürətləndirir və dayanıqlı inkişaf modelinin formalaşmasına xidmət edir. Qarşıdakı dövrdə də xarici investorlarla əməkdaşlığın genişləndirilməsi və yeni layihələrin cəlb olunması istiqamətində işlər davam etdiriləcək.

Qarabağda dağıdılmış şəhər və kəndlərin bərpasına dünyanın müxtəlif ölkələrindən olan şirkətlərin qoşulması Azərbaycanın beynəlxalq etimad qazandığını və regionun böyük iqtisadi potensiala malik olduğunu göstərir. Qarabağ artıq yalnız keçmişin ağrılarını deyil, gələcəyin böyük ümidlərini özündə daşıyan bir inkişaf məkanına çevrilir. Burada ucalan hər bina, çəkilən hər yol və qoyulan hər investisiya Böyük qayıdışın sürətlə yaxınlaşdığının göstəricisidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Yeni çağırışlar TAP-ın genişləndirilməsini tələb edir

### Bu kəmərin təməlinin qoyulmasından 10 il keçir

**Avropaya yeni mənbədən və yeni marşrutla qaz axınını təmin edən TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) təməlinin qoyulmasından 10 il keçir. Təməlqoyma mərasimi 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində keçirilib və orada Azərbaycanın, Yunanıstanın, ABŞ-nin, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksəkvəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak ediblər.**




"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP-ın çəkilişi bir neçə il davam edib və onun istifadəyə verilməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi işə düşüb.

3500 kilometrlik bu dəhliz vasitəsilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qaz Gürcüstana, Türkiyəyə və Avropaya çatdırılır. Beləliklə, "Cənub qaz dəhlizi" üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Kəmərin uzunluğu təxminən 878 kilometrdir. Marşrutun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu, bir neçə kilometri İtaliyada quru sahəyə çıxır. Burada kəmər həmin ölkənin qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Qeyd edək ki, TAP-ın səhmdarları BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

2020-ci ilin son günündən başlayaraq TAP ahəngdar və təhlükəsiz şəkildə işləyir. Kəmərin daşıdığı Azərbaycan qazının ixrac coğrafiyası genişlənir. Bu gün ölkəmizdən Gürcüstan və Türkiyədən başqa, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya qaz alır. Göründüyü kimi, bunların 10-u Avropa İttifaqına üzv dövlətlərdir.

Xatırladaq ki, Gürcüstana qaz CQBK ilə 2006-cı ildən çatdırılır. Türkiyə Azərbaycan qazını BTƏ (Bakı-Tbilisi-Ərzurum) kəməri ilə 2007-ci və TANAP-la 2018-ci ildən idxal edir. Avropaya isə ölkəmizdən qaz nəqli, qeyd edildiyi kimi, 2020-ci il dekabrın 31-də TAP-ın işə düşməsi ilə başlayıb. TAP-ın istifadəyə verilməsi və artıq ahəngdar fəaliyyət göstərməsi ölkəmiz üçün mühüm tarixi hadisədir. Regionun və Avropanın enerji təhlükəsizliyində önəmli əhəmiyyətə malik "Cənub qaz dəhlizi"nin sonuncu hissəsinin yekunlaşması həm də Azərbaycan qazını gözləyən bütün ölkələr, layihədə tərəfdaşlıq edən şirkətlər üçün böyük hadisə kimi dəyərləndirilir.

Yeri gəlmişkən onu da qeyd edək ki, 2026-cı ilin yanvar-mart ayları ərzində Azərbaycan xarici ölkələrə 6,5 milyard kubmetr təbii qaz ixrac edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 8,3 faiz artım deməkdir. İxracın istiqamətləri isə belədir: Avropa - 3 milyard kubmetr, Türkiyə - 2,4 milyard kubmetr (bunun 1,5 milyard kubmetri TANAP vasitəsilə), Gürcüstan - 0,8 milyard kubmetr, Suriya - 0,3 milyard kubmetr. Bu dövrdə ölkədə ümumi qaz hasilatı 12,6 milyard kubmetr təşkil edib.

Yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır. 2022-ci il oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiyada Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) istifadəyə verilməsi də bu tələbatdan irəli gəlir. Ümumi uzunluğu 182 kilometr olan IGB Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir. Kəmər Azərbaycan təbii qazını Bolqarıstana çatdırır. Bu məqsədlə Bolqarıstanın "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. 2023-cü il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru fəaliyyətə başladı. Bu layihələrin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla diversifikasiyasının göstəricisi kimi qiymətləndirilir. Bunların ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyət daşıdığı şəksizdir.

Dəhlizin genişləndirilməsi, ixracın şaxələndirilməsi isə zamanın çağırışıdır. Bu barədə 2015-ci ildən başlayaraq hər il Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclaslarında ətraflı söhbət gedir. Cari il martın 3-də keçirilən 12-ci toplantıda Prezident İlham Əliyev bu barədə belə demişdir: "Biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün "Cənub qaz dəhlizi" artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## *İstehlak qiymətləri:* ucuzlaşma da var, bahalaşma da

**Bu ilin yanvar-aprel aylarında istehlak qiymətləri 2025-ci ilin eyni dövrünə nisbətən 5,6, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,7, qeyri-qida məhsulları üzrə 3,7, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artmışdır.**

2025-ci ilin aprel ayı ilə müqayisədə illik qiymət artımı 5,5, son bir ayda isə 0,3 faiz olmuşdur. Bu ilin aprel ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 0,3, əvvəlki ilin müvafiq ayına nisbətən 6,2 faiz artmışdır.

Cari ilin aprel ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından əsasən qarabaşaq yarması, mal və qoyun əti, kolbasa məmulatları, pendir, süfrə marqarini, qarğıdalı yağı, limon, banan, alma, kivi, ağ kələm, brokkoli, süfrə çuğunduru və kartofun qiymətləri bahalaşmış, yumurta, portağal, şabalıd, gül kələmi, göyərti, xiyar, pomidor, şirin bibər, badımcan, sarımsaq və soğanın qiymətləri ucuzlaşmışdır. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Ötən ay qeyri-qida məhsulları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 0,2, əvvəlki ilin müvafiq ayına nisbətən 4 faiz bahalaşmışdır. Aprel ayında əvvəlki ayla müqayisədə əsasən sement, kəsilmiş taxta, mebel və yuyucu vasitələrin qiymətləri bahalaşmış, zərgərlik məmulatlarının qiymətləri ucuzlaşmış, digər qeyri-qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Keçən ay əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə qiymət artımı əvvəlki aya nisbətən 0,3, əvvəlki ilin müvafiq ayına nisbətən 5,8 faiz təşkil etmişdir. Aprel ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əsasən stomatoloji xidmətlər, restoran və kafelər tərəfindən göstərilən iaşə xidmətlərinin qiymətləri bahalaşmış, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətləri ucuzlaşmışdır. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

## Dünya birjalarında neftin qiyməti artıb

### Azərbaycan nefti 113,4 dollara satılır

**AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,87 dollar bahalaşaraq 107,59 dollar olub.**

Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 2,19 dollar artaraq 103,36 dollar təşkil edib.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,04 dollar və ya 1,76 faiz azalaraq 113,48 dollar olub.





## "Böyük qayıdış" proqramı sürətlə icra olunur





# Bizim əbədi Laçın



**Bir zamanlar həsrətin simvoluna çevrilmiş Laçın dağları indi zəfərin vüqarı ilə buludlara boylanır. Üzərində ay-ulduzlu, üçrəngli bayrağımız dalğalanan Həkəri çayı doğma sahiblərinə qovuşmağın sevinci ilə çağlayır. Laçın artıq bizim üçün əlyetməz, ünçatmaz ünvan deyil.**

Laçın xalqımızın sarsılmaz inamının və milli ləyaqətimizin bərpa olunduğu qürur salnaməsidir. Bu gün Laçın deyəndə artıq köçkünlük acısını yox, böyük qayıdışın sevincini, yenidən qurulan yurd yerimizin müasir simasını və xalqımızın böyüklüyünü göz önünə gətiririk. İndi biz dağlar qoynunda bina edilmiş əsrarəngiz yurdda azad nəfəs alırıqsa, bu, birqərinəlik həsrət qaranlığını yaran parlaq Zəfərimizin sayəsindədir.

### 18 mayın ağrılı-acılı dərsi

18 may 1992-ci il. Bu, Azərbaycan xalqının yaddaşında Şuşanın itkisindən cəmi 10 gün sonra yaşanan növbəti bir faciənin - Laçın rayonunun işğalının acı tarixi idi. Laçının işğalı Azərbaycana vurulan ən ağır zərbələrdən biri oldu. 34 il əvvəl yaşanan bu faciə Ermənistanla Qarabağ arasında "nəfəslik" açaraq növbəti işğallar üçün qanlı zəmin hazırladı. Rayonun işğal altına düşməsi ilə faktiki olaraq Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradıldı. Bu isə növbəti mərhələdə işğalçı Ermənistanın Kəlbəcəri və digər rayonlarımızı zəbt etməsinə birbaşa şərait yaratdı. Ermənistanın rayonlarımızı, o cümlədən Laçını asanlıqla işğal etməsi həmin dövrdə ölkədəki rəhbərliyin və iqtidara can atan qüvvələrin milli xəyanətinin ağrı-acılı nəticəsi idi. Laçının ermənilərə təhvil verilməsinin arxasında məkrli siyasi niyyətlər dayanmışdı. Həmin faciəvi dövrdə Şuşanın, Laçının müdafiəsini təşkil etmək əvəzinə Bakıda hakimiyyət davası aparan antimilli qüvvələri nə ölkənin, nə də xalqın taleyi maraqlandırırdı. Buna görə də 1992-ci il mayın 18-də Laçın işğal altına düşdü və yurdundan zorla didərgin salınan, məcburi köçkünə çevrilən on minlərlə vətəndaşımız ölkəmizin müxtəlif bölgələrində çadırlarda, yataqxanalarda, vaqonlarda... acınacaqlı vəziyyətdə yaşamağa başladılar.

Ancaq bütün bu maddi-mənəvi məhrumiyyətlər laçınlıların ürəklərindəki yurda dönüş inamlarını sındıra bilmədi. Onlar hər il mayın 18-ni təqvimdəki qara ləkə kimi yox, qayıdışın başlanğıcı kimi gözlədilər.

Və bu böyük inam bir gün yurda dönüş sevinci ilə nəticələndi.

### Gerçəkləşdirilən vəd

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı xalqımızın qurtuluşu oldu. O zaman xilaskarlıq missiyasını üzərinə götürən Ulu Öndər Azərbaycanın öz gücünü toplaması üçün bugünkü zəfərimizi təmin edən siyasət yürüdərək möhkəm təməllər yaratdı.

2003-cü ildən etibarən Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin ötən müddətdə gündəliyində duran başlıca məsələ torpaqlarımızın işğaldan azad edilməsi idi. Bu istiqamətdə düşünülmüş siyasət yürüdən dövlətimizin başçısı əmin idi ki, torpaqlarımız mütləq işğaldan azad ediləcək.

2011-ci il dekabrın 24-də - öz doğum günündə Ağcabədidəki Taxtakörpü qəsəbəsində laçınlı köçkünlərlə görüşən Prezident İlham Əliyev o vaxt hər kəsin qəlbinə ümid toxumu səpən və hələ də yaddaşlarda dərin iz buraxan məşhur sözlərini demişdi: "Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda... bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm". Həmin vaxt bəlkə də bəziləri üçün bu uzaq bir arzu kimi görünsə də, dövlət başçısı bu hədəfə doğru hər gün inamla addımlayırdı.

Həmin tarixi günün üzərindən heç on il keçməmiş Laçın rayonu işğaldan azad edildi. 2022-ci il avqustun 26-da azadlığına qovuşdurulan Laçın şəhərinə isə cəmi 9 ay sonra - 28 May Müstəqillik Günündə qayıdış köçü həyata keçirildi. Həmin gün azad Laçında bu əsrarəngiz şəhərin sakinləri ilə görüşən Prezident İlham Əliyev vaxtilə Ağcabədidə laçınlılarla keçirilən o unudulmaz görüşü xatırladı və o zaman deyilən sözlərin artıq gerçəyə çevrilməsinin qürurunu bölüşdü: "O görüşdə demişdim ki, gün gələcək, biz sizin üçün Laçında daha gözəl evlər tikəcəyik və gün gəldi. O tarixdən cəmi 11 il keçib, biz sizinlə artıq Laçın şəhərində görüşürük və bundan böyük xoşbəxtlik ola bilməz".

Xilaskar lider İlham Əliyev vurğuladı ki, bu tarixlərin - yəni Laçının azad olunmasının və bu gün bizim burada keçirdiyimiz görüşün tarixlərinin də rəmzi mənası var: "May ayında Laçın işğal altına düşdü, may ayında laçınlılar Laçına qayıtdılar. Düzdür, 31 ildən sonra, amma biz qayıtmışıq".

### Qələbə strategiyası

İkinci Qarabağ müharibəsi Azərbaycanın hərbi və diplomatik dühasını dünyaya nümayiş etdirdi. Şuşanın azad edilməsindən sonra diz çökən düşmən 2020-ci il dekabrın 1-də Laçını təhvil verməyə məcbur oldu. Bu, strateji zəfər idi. Tarixi qələbənin üzərindən bir il keçdikdən sonra, 2021-ci il avqustun 16-da Laçın rayonuna səfər edən Prezident İlham Əliyev burada Laçın Beynəlxalq Hava Limanının təməlini qoymaqla bu cənnətməkan ərazidə aparılacaq geniş quruculuq və bərpa işlərinə start verdi.

Azərbaycanın 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş yeni Laçın avtomobil yolunu vaxtından xeyli əvvəl istifadəyə verməsi ilə 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri təcavüzkarlar tərəfindən boşaldıldı.

Həmin vaxt düşmən ərazilərimizdən çıxarkən belə öz xislətini göstərdi. Evləri yandırdı, meşələri məhv etdi.

2022-ci il sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldan qalib lider İlham Əliyev çıxışında bəyan etdi ki, bu, tarixi hadisədir: "Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır".

2023-cü il aprelin 23-də Həkəri çayı üzərində qurulan Laçın sərhəd-buraxılış məntəqəsi Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunmasının rəmzi oldu.

Zəfər salnaməmizin haqq səsi kimi Həkəri çayının üzərində ucaldılan üçrəngli bayraq hər bir azərbaycanlının qəlbindəki "Vətən bütövləşdi" nidasının sədası oldu. Sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə dövlətimiz öz suveren hüquqlarını bütün dünya qarşısında bir daha təsdiqlədi.

### Cənnətməkana qayıdış

Bu gün Laçın yenidən cənnətməkana çevrilib. Laçın Beynəlxalq Hava Limanının inşası, yeni tunellər, yollar və müasir üslubda bərpa edilən evlər rayonun simasını tamamilə dəyişib.

Həyata keçirilən quruculuq işlərinin nəticəsidir ki, Laçın şəhərinə, eləcə də Zabux, Sus və Bəylik kəndlərinə qayıdış həyata keçirilib, minlərlə laçınlı doğma yurdda sevincli günlərə başlayıb.

Yurdlarına dönən keçmiş məcburi köçkünləri öz doğma evlərində ziyarət etmək Prezident İlham Əliyevin xoş ənənələrindən biridir.

Ölkə rəhbərinin bayram əhvalı ilə keçən unudulmaz görüşlərindən biri 2023-cü il mayın 28-də Laçına dönən ilk sakinlərlə oldu.

"Cənnətin əgər təsviri varsa, bu gün, bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun", - deyə Prezident İlham Əliyev laçınlıların yurda dönüş sevinclərini bu qürurverici sözlərlə bölüşmüşdü.

Bəli, 1992-ci ilin may ayında didərgin salınan laçınlılar 31 il sonra yenə may ayında - bu dəfə Müstəqillik Günündə öz doğma yurdlarına qayıtdılar. Bu qayıdış tarixi ədalətin qələbəsi, Laçının yeni növrağının başlanğıcı oldu.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Şərqi Zəngəzurun yeni növrağı

## Dünən Zəngilan şəhəri və Cəbrayıl rayonunun Şükürbəyli kəndi növbəti sakinlərini qarşılayıb

**İşğaldan azad olunmuş ərazilərimizdə aparılan yenidənqurma və bərpa prosesi artıq yeni tarixi mərhələnin simvoluna çevrilib. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı layihələr təkcə dağıdılmış şəhər və kəndlərin yenidən qurulması anlamına gəlmir. Bu proses eyni zamanda insanların öz doğma yurdlarına qayıdışı, illərlə yarımçıq qalan həyatların yenidən qurulması, sosial və iqtisadi münasibətlərin bərpası deməkdir.**

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr öz miqyası və sürəti ilə diqqət çəkir. Qüdrətli dövlətimiz tərəfindən bölgənin dirçəldilməsi istiqamətində sistemli addımlar atılır, şəhərsalma müasir yanaşmalar əsasında həyata keçirilir. Burada məqsəd yalnız yaşayış məntəqələrini bərpa etmək deyil, eyni zamanda müasir standartlara uyğun, dayanıqlı və komfortlu həyat mühiti yaratmaqdır.

Azad olunmuş ərazilərdə həyata keçirilən tikinti və infrastruktur layihələri bir neçə əsas istiqaməti əhatə edir. Bunların sırasında yolların çəkilməsi, elektrik və qaz xətlərinin qurulması, su təminatının yaradılması, rabitə sistemlərinin yenilənməsi, məktəb və xəstəxanaların tikilməsi xüsusi yer tutur. Uzun illər tamamilə dağıdılmış vəziyyətdə qalan yaşayış məntəqələrində demək olar ki, bütün infrastrukturlar sıfırdan qurulur.

Müasir şəhərsalma yanaşmasının əsas elementlərindən biri də "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqidir. Bu model çərçivəsində tikilən yaşayış məntəqələrində ekoloji təhlükəsizlik, rəqəmsal idarəetmə, enerjidən səmərəli istifadə və vətəndaş rahatlığı əsas prioritetlər kimi müəyyənləşdirilib. Yeni qurulan kənd və şəhərlərdə alternativ enerji mənbələrinin tətbiqi, elektron xidmətlərin təşkili və rəqəmsal infrastrukturun yaradılması bölgənin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.



Quruculuq işlərinin mühüm istiqamətlərindən biri də sosial infrastrukturun formalaşdırılmasıdır. Yeni məktəblər, uşaq bağçaları, tibb müəssisələri və sosial xidmət obyektləri insanların rahat yaşayışını təmin etmək məqsədi daşıyır. Dövlətin əsas məqsədi yalnız əhalini doğma torpaqlarına qaytarmaq deyil, eyni zamanda onlar üçün təhlükəsiz və yüksək həyat standartlarına uyğun mühit yaratmaqdır.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bildirib ki, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi Azərbaycanın əsas milli prioritetlərindən biridir. Dövlət başçısı mayın 10-da Zəngilan şəhərində ilk yaşayış kompleksinə köçən ailələrlə görüşü zamanı qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri torpaqlarımızın işğaldan azad olunması idi və Azərbaycan xalqı bu vəsiyyəti yerinə yetirdi. Bu gün ölkənin hər qarış torpağında Azərbaycanın suverenliyi tam təmin olunub.

Zəngilan şəhərində istifadəyə verilən ilk yaşayış kompleksi bölgədə həyata keçirilən yenidənqurma işlərinin mühüm nümunələrindən biridir. İki hektardan artıq ərazidə salınmış kompleksdə ümumilikdə 12 bina tikilib. Buraya həm üçmərtəbəli çoxmənzilli binalar, həm də "townhouse" tipli ikimərtəbəli evlər daxildir. Kompleksdə ümumilikdə 104 mənzil mövcuddur. Mənzillərin əksəriyyəti sakinlərin istifadəsinə verilib, müəyyən hissəsi isə xidməti məqsədlər üçün nəzərdə tutulub. Buradakı mənzillər müxtəlif ailə tərkibinə uyğun şəkildə 2, 3, 4 və 5 otaqlı formatda inşa olunub.

Yeni yaşayış kompleksində sakinlərin rahatlığı üçün geniş imkanlar yaradılıb. Ərazidə uşaq və idman meydançaları, velosiped zolaqları, yeraltı və yerüstü dayanacaqlar salınıb. Kompleks şəhərin Baş planına uyğun olaraq məktəb, uşaq bağçası və park ərazilərinə yaxın yerləşdirilib. Bu yanaşma gələcəkdə şəhərin daha rahat və funksional inkişafına xidmət edir.

Zəngilan şəhərinə keçmiş məcburi köçkünlərin mərhələli şəkildə geridönüşü davam edir. Dünən 5 ailə olmaqla 26 nəfər öz yurduna qovuşub. Bununla da Zəngilanda məskunlaşan insanların sayı 339 nəfərə (84 ailə) çatıb. Bu rəqəmlər göstərir ki, "Böyük qayıdış" proqramı sürətlə həyata keçirilir.

Zəngilanda icra olunan layihələr sırasında turizm və xidmət sektorunun inkişafına yönəlmiş təşəbbüslər də xüsusi yer tutur. Prezident İlham Əliyev mayın 10-da "Zangilan City Park Hotel"in təməlini qoyub. 1,5 hektarlıq ərazidə tikiləcək hotel bölgənin turizm potensialının inkişafına mühüm töhfə verəcək. Burada 116 otağın yaradılması nəzərdə tutulur və eyni vaxtda 241 nəfərin yerləşməsi mümkün olacaq. Hoteldə restoran, iclas zalları, idman zalı və açıq terras fəaliyyət göstərəcək. Layihənin daha bir mühüm tərəfi isə məşğulluğa töhfəsi olacaq. Yeni hotelin istifadəyə verilməsindən sonra 120 nəfər işlə təmin ediləcək.

Qarabağda yenidən qurulan yaşayış məntəqələrindən biri də Cəbrayıl rayonunun Şükürbəyli kəndidir. Dünən kəndə 107 ailə olmaqla 453 nəfər köçürülüb. Bununla da kənd sakinlərinin sayı 915 nəfərə (214 ailə) çatıb. Şükürbəyli Cəbrayıl rayonunun mühüm yaşayış məntəqələrindən biri hesab olunur və rayon mərkəzindən 18 kilometr məsafədə yerləşir. Burada həyata keçirilən quruculuq işləri kəndin tamamilə yeni simada formalaşdırılmasına şərait yaradıb. Şükürbəyli kəndində inşa edilən 360 şagird yerlik məktəb binası bölgədə təhsilin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Müasir standartlara uyğun tikilən məktəbdə şagirdlərin keyfiyyətli təhsil alması üçün bütün zəruri şərait yaradılıb. Təhsil müəssisələrinin tikintisi dövlətin Qarabağda insan kapitalının formalaşdırılmasına verdiyi önəmin göstəricisidir.

Şükürbəyliyə gələcək mərhələlərdə daha çox ailənin köçürülməsi nəzərdə tutulur. Buraya yalnız kəndin əvvəlki sakinləri deyil, həmçinin Şıxalıağalı, Dəjəl və Mahmudlu yaşayış məntəqələrinin sakinləri də daxil olacaq. Ümumilikdə 615 ailənin, yəni 2522 nəfərin bu əraziyə köçürülməsi planlaşdırılır. İlkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Bu evlərin böyük hissəsi sakinlərin istifadəsinə təqdim olunub, bir qismi isə xidməti məqsədlər üçün ayrılıb.

Şükürbəyli kəndində sosial infrastrukturun qurulmasına da xüsusi diqqət yetirilib. Burada iki uşaq bağçası, tibb məntəqəsi, musiqi məktəbi, icma mərkəzi və inzibati bina tikilib. Kənddə sakinlərin rahat yaşayışı üçün bütün əsas kommunal xidmətlər yaradılıb. Elektrik yarımstansiyası istifadəyə verilib, qaz, su, rabitə, internet və "İP TV" şəbəkələri qurulub, yollar asfaltlanıb. Bütün bunlar onu göstərir ki, yeni salınan yaşayış məntəqələri müasir kənd modelinə uyğun şəkildə formalaşdırılır.

Bu gün 35 minə yaxın keçmiş məcburi köçkün doğma torpaqlarında yaşayır. Bu rəqəm Azərbaycanın iqtisadi və siyasi gücünün təzahürüdür. Bu proses regionun gələcək inkişaf modelini formalaşdırır, yeni iqtisadi imkanlar yaradır və sosial rifahın yüksəlməsinə xidmət edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Cəbrayılın Şükürbəyli kəndində daha 107, Zəngilan şəhərində isə 5 ailəyə evlərinin açarları təqdim olunub

İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib, dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar. Həmin ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Qeyd edək ki, bu mərhələdə Şükürbəyli kəndinə 107 ailə olmaqla 453 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.




* * *

İşğaldan azad edilmiş Zəngilan şəhərinə növbəti köç gerçəkləşib, doğma yurdlarına yola salınan 26 nəfərdən ibarət 5 ailəyə evlərinin açarları təqdim olunub.

Ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Qeyd edək ki, Zəngilan şəhərinin ilk yaşayış kompleksi tam müasir standartlara uyğun şəkildə yenidən qurulub və sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Yaşayış kompleksinin ümumi ərazisi 2 hektardan artıqdır. Burada 12 bina inşa olunub. O cümlədən 4 ədəd (60 mənzilli) üçmərtəbəli, 8 ədəd (44 mənzilli) ikimərtəbəli "townhouse" tipli evlər tikilib. Kompleksdə ümumilikdə 104 mənzil var ki, onlardan da 84-ü sakinlər, 20-si isə xidməti istifadə üçündür. Mənzillər 2, 3, 4 və 5 otaqlıdır. Ərazidə uşaq və idman meydançaları, velosiped zolağı, yeraltı və yerüstü avtomobil dayanacaqları yaradılıb.

Zəngilanın Baş planına əsasən, yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, məktəb, körpələr evi-uşaq bağçası və parkın yaxınlığında, ortasıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

# Birinci Qarabağ müharibəsinin itkin şəhidi Rafiq Cəfərov Füzuli rayonunda dəfn edilib

**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Rafiq Şirvan oğlu Cəfərovun nəşi Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kənd qəbiristanlığında dəfn olunub.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Əbdürrəhmanlı kəndində vida mərasimi olub, cənazə namazı qılınıb. Mərasimdə şəhidin ailə üzvləri, dövlət və hökumət nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimindən sonra Rafiq Cəfərov hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.

Qeyd edək ki, Rafiq Cəfərov 1973-cü ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1993-ci ildə Cuvarlı və Aşağı Əbdürrəhmanlı istiqamətində gedən döyüşlərdə itkin düşüb. Onun şəxsiyyəti aparılan müvafiq ekspertiza nəticəsində müəyyən olunub.

## BEYNƏLXALQ HƏYAT

# Tramp-Si danışıqları Pekinin İranla bağlı mövqeyini dəyişməyib

**ABŞ lideri Donald Trampın İranla müharibəyə son qoymaq üçün Çinin əməkdaşlığını təmin edəcəyinə dair gözləntilər puç olub. Danışıqlar heç bir şəkildə Pekinin mövqeyini dəyişməyib. Bu barədə CNN telekanalı xəbər verir.**



Məlumata görə, çoxları Donald Trampın qlobal enerji bazarlarını xaosa salan İranla müharibəyə son qoymaq üçün çinli həmkarının əməkdaşlığını təmin edəcəyini gözləyirdi. Çünki Çin İranın yaxın diplomatik tərəfdaşı və neftinin əsas alıcısıdır. Bundan əlavə, Pekin bütün hərbi əməliyyatlar zamanı özünü sülh tərəfdarı kimi təqdim edib. Lakin hər iki tərəfdən gələn stenoqramlar göstərir ki, danışıqlar ÇXR-in mövqeyini dəyişməyib.

Cümə axşamı Si ilə danışıqların birinci mərhələsindən sonra Tramp "Fox News" telekanalına bildirib ki, Çin lideri münaqişənin həllinə kömək təklif edib. Lakin Dövlət katibi Marko Rubio həmin gün "NBC News" telekanalına verdiyi müsahibədə ABŞ-nin Çindən kömək istəmədiyini bildirib. O həmçinin ABŞ-nin Tayvanla bağlı siyasətinin dəyişmədiyini və həm əvvəlki prezidentlər, həm də hazırkı administrasiya dövründə sabit qaldığını bildirib. Dövlət katibi qeyd edib ki, ABŞ-nin Tayvana silah satışı məsələsi Tramp-Si danışıqlarında əhəmiyyətli yer tutmayıb. "Fikrimizcə, mövcud status-kvonun və hazırkı vəziyyətin hər hansı bir zorakı dəyişikliyi hər iki ölkə üçün pis olardı", - deyə Rubio bildirib.

Ağ Evin açıqladığı danışıqların stenoqramlarında tərəflərin aşağıdakılar barədə razılığa gəldiyi göstərilir: İran tərəfindən demək olar ki, tamamilə bağlanmış mühüm su yolu olan Hörmüz boğazı açıq qalmalıdır; İran nüvə silahına sahib olmamalıdır.

Ağ Evin hesabatında həmçinin Si Cinpinin "boğazın militarizasiyasına və onun istifadəsi üçün rüsum tətbiq etmək cəhdlərinə birmənalı şəkildə qarşı çıxdığı" bildirilir. Həmçinin Çinin ABŞ-dən daha çox neft alacağı qeyd olunur.

Pekin dəfələrlə sülh danışıqlarını asanlaşdırmaq üçün mümkün olan hər şeyi edəcəyinə söz verib və Si ötən ay Hörmüz boğazından normal keçidin təmin olunmasına çağırıb. Çin Xarici İşlər Nazirliyinin danışıqlar zamanı İrana dair müzakirələrlə bağlı verdiyi açıqlamada boğazdan keçid üçün rüsumlar ödəmək barədə heç bir söz deyilməyib. Bir neçə saat sonra, yerli vaxtla cümə gününün səhəri, Çin Xarici İşlər Nazirliyi Pekinin mövqeyinin dəyişməz qaldığını bildirən bir bəyanat da yayıb. "Çinin İrandakı vəziyyətlə bağlı mövqeyi çox aydındır", - deyə məlumatda bildirilib.

ABŞ və Çin arasında enerji müqaviləsinin yaxın gələcəkdə bağlanması mümkündür. Lakin Donald Tramp və Si Cinpin arasındakı danışıqların münaqişəyə hər hansı bir təsir göstərib-göstərməyəcəyi hələ də məlum deyil. Hələlik Pekin hazırkı mövqeyinə sadiq qalır.

Son məlumata görə, ABŞ Prezidenti Donald Tramp bildirib ki, Çin Prezidenti Si Cinpin onu "nailiyyətləri" münasibətilə təbrik edib və ABŞ ilə Çin arasında daha güclü münasibətlərə ümid etdiyini vurğulayıb.

Pekinə səfəri zamanı Tramp sosial media hesabında keçmiş prezident Co Baydeni də tənqid edib. Onun dediyinə görə, Si Cinpin Baydenin prezidentliyi dövrünə istinad edərək ABŞ-ni "tənəzzülə uğrayan ölkə" adlandırıb. Amerika lideri Si Cinpinin Bayden dövrü ilə bağlı haqlı olduğunu bildirib və ABŞ iqtisadiyyatının, siyasətinin və sosial sahələrinin bu dövrdə zəiflədiyini etiraf edib. O əlavə edib ki, öz prezidentliyi dövründə bütün bu sahələrdə irəliləyişlər əldə edilib. Tramp həmçinin Çin liderinin onu "uğurları" münasibətilə təbrik etdiyini deyib.

Amerika lideri həmçinin administrasiyasının həm Venesuelada, həm də İranda "hərbi qələbələr" əldə etdiyini iddia edib və İrana təzyiqi artırmağa davam etmək niyyətini vurğulayıb.

D.Tramp qeyd edib ki, ABŞ yenidən dünyanın ən cəlbedici ölkəsinə çevrilib. O, Çinlə münasibətlərin indiyədək olduğundan daha güclü və daha yaxşı olacağına ümid etdiyini bildirib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Bilmək istəyirəm

*Şəxsi dronumu həyətimdə və ya şəhər daxilində heç bir rəsmi icazə almadan uçursam, bu, qanun pozuntusu sayılırmı? Əgər sayılırsa, hansı hallarda məsuliyyət yaranır və məni hansı məbləğdə cərimə və ya digər hüquqi sanksiyalar gözləyə bilər?*

***Məhəmməd ƏLİZADƏ, Sumqayıt şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikasının qanunvericiliyi pilotsuz uçuş aparatlarının (PUA) istifadəsini dispozitiv (sərbəst) deyil, imperativ (məcburi) normalarla tənzimləyir. Nəzərə almalısınız ki, sizin mülkiyyət hüququnuzun olması (həyətyanı sahəyə sahiblik) həmin sahə üzərindəki hava məkanından sərbəst istifadə hüququ vermir.

"Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci bəndinə əsasən, mülki pilotsuz uçuş aparatları (uşaqların istifadəsi üçün nəzərdə tutulmuş oyuncaq pilotsuz uçuş aparatları istisna olmaqla) Mülki Məcəlləyə uyğun olaraq, mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyalar siyahısına daxildir və xüsusi icazə əsasında dövriyyədə ola bilər.

Xüsusi icazə Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanlarının (Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi) rəyləri nəzərə alınmaqla verilir.

Qeyd edək ki, qanunvericilikdə mülki PUA sistemlərinin icazəsiz istismarı, əldə edilməsi və satılması inzibati məsuliyyət yaradır. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 294-3.1-ci maddəsi ilə müvafiq icazə alınmadan model pilotsuz uçuş aparatı klubu və ya assosiasiyasının fəaliyyət göstərməsinə görə -fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər səkkiz min manat məbləğində; 294-3.2-ci maddəsinə görə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəzin icazəsi olmadan nəzarət olunan hava məkanında və aerodromyanı ərazidə mülki pilotsuz uçuş aparatı sistemləri əməliyyatlarının həyata keçirilməsinə görə -fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər on beş min manat məbləğində və 294-3.3-cü maddəsinə görə, məsafədən idarə edən pilotun (operatorun) əməliyyatın dayandırılması və ya dəyişdirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəzin verdiyi göstərişi dərhal yerinə yetirməməsinə görə -fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər on yeddi min manat məbləğində cərimə edilirlər.

Həmçinin İnzibati Xətalar Məcəlləsinin 592-1-ci maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının xüsusi icazəsi olmadan mülki pilotsuz uçuş aparatlarının (uşaqların istifadəsi üçün nəzərdə tutulmuş oyuncaq pilotsuz uçuş aparatları istisna olmaqla) əldə edilməsi və ya satılmasına görə -mülki pilotsuz uçuş aparatları müsadirə edilməklə yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

Bununla yanaşı nəzərə almalısınız ki, əgər şəhər daxilində uçuş həyata keçirirsinizsə, bu, təkcə inzibati xəta kimi deyil, həm də şəxsi və ictimai təhlükəsizliyə müdaxilə kimi də qiymətləndirilə bilər.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**




# "Spotify"da yeni dövr

**Süni intellekt tərəfindən yaradılan sənətçilər və treklər musiqi platformalarında getdikcə daha çox yayıldığı üçün "Spotify" dinləyicilərə real sənətçiləri daha asan tanımağa imkan verəcək yeni "Spotify" tərəfindən təsdiqlənmiş" nişanını istifadəyə verir.**




Xüsusilə generativ süni intellektin musiqi sənayesini sürətlə dəyişdirdiyi bir dövrdə istifadəçilərin qarşılaşdıqları profilin həqiqətən həmin sənətçiyə aid olub-olmadığını bilməsi mühüm əhəmiyyət daşıyır. Şirkətin açıqlamasına görə, istifadəçilərin aktiv şəkildə axtardıqları sənətçilərin 99 faizindən çoxu buraxılış mərhələsində bu yaşıl nişanla təsdiqlənib.

Yeni sistemdə musiqiçi adlarının yanında görünəcək yaşıl işarələr dinləyicilərə daha təhlükəsiz və şəffaf təcrübə təqdim edəcək. Bununla belə, süni intellekt tərəfindən yaradılmış uydurma sənətçi profillərinin bu doğrulama proqramına qoşulmasına icazə verilməyəcək. Təsdiqləmə prosesi zamanı sənətçinin keçmiş konsert fəaliyyəti, musiqi irsi, sosial media hesablarındakı aktivliyi, dinlənmə və axtarış statistikasına qədər bir çox fərqli meyar ayrıca qiymətləndirilir. Şirkət bu addımla platformada etimadı daha da gücləndirməyi hədəfləyir.

"Spotify" təsdiq nişanları ilə yanaşı, sənətçilərin karyerası haqqında vacib məlumatları özündə əks etdirən yeni bölməni də sınaqdan keçirir. "Sənətçi təfərrüatları" adlanan bölmədə turlar, əhəmiyyətli albom buraxılışları və karyera mərhələləri barədə qısa məlumatlar yer alacaq. Şirkətdən bildirilir ki, bu məlumatlardan istifadə etmək üçün sənətçinin mütləq təsdiqlənmiş nişana sahib olması tələb olunmur. Bundan əlavə, "SongDNA" və hazırda test mərhələsində olan "Sənətçi profilinin qorunması" bölümü də platformanın şəffaflığını artırmaq üçün hazırlanmış əsas yeniliklər sırasındadır.

## İnternet əfsanəsinin sonu




Bir vaxtlar milyonlarla internet istifadəçisinin fəal şəkildə istifadə etdiyi məşhur axtarış sistemi "Ask.com" mayın 1-dən fəaliyyətini dayandırıb. Platformanın sahibi olan "InterActiveCorp" korporasiyasından bildirilib ki, şirkətin gələcək strategiyasındakı dəyişikliklər səbəbindən axtarış sahəsindən tamamilə çəkilmək qərarı verilib.

"Ask Jeeves" xüsusilə "Jeeves" adlı virtual batler obrazı ilə yadda qalmışdı. Platforma istifadəçiləri açar sözlər deyil, tam cümlə və suallarla axtarışı təşviq edən ilk xidmətlərdən biri idi. Bu yanaşmanın sonradan "ChatGPT" kimi müasir süni intellekt əsaslı çatbotların inkişafına müəyyən təsir göstərdiyi düşünülür.

"Ask.com"un bağlanması ilə platforma artıq fəaliyyətini dayandırmış digər məşhur xidmətlər, o cümlədən "AltaVista" ilə birlikdə internetin "qızıl dövrü"nün simvollarından birinə çevrilir.

## "Samsung"dan tarixi rekord




"Samsung" bazar dəyərinin 1 trilyon dolları keçməsi ilə tarixində mühüm rekorda imza atıb. Texnologiya nəhənginin səhmləri son bir ildə dörd dəfədən çox bahalaşıb. Bu yüksəlişin əsas səbəbi kimi isə süni intellekt sektorundakı qlobal artım göstərilir.

Hazırda Cənubi Koreya iqtisadiyyatının əsas dayaqları hesab edilən "Samsung" və "SK Hynix" şirkətləri indeksin ümumi çəkisinin 42 faizini təşkil edir. Analitiklər bildirirlər ki, bu maliyyə sıçrayışı süni intellekt sistemləri üçün nəzərdə tutulmuş yüksək performanslı yaddaş çiplərinə olan tələbatın kəskin artması ilə bağlıdır.

Şirkət rəhbərliyi hesab edir ki, yüksəliş hələ pik nöqtəyə çatmayıb. Bildirilir ki, böyük İT şirkətləri artıq 2027-ci il üçün lazım olan komponentlərə əvvəlcədən sifariş verməyə başlayıblar.

## Ekransız "Fitbit Air" cihazı



"Google Fitbit" yeni nəsil ağıllı fitnes trekeri - "Fitbit Air" modelini təqdim edib. Mart ayında anonsu verilən "Whoop" tipli ekransız cihaz artıq rəsmi şəkildə nümayiş etdirilib və 100 dollardan sifarişə açılıb.

"Fitbit Air" klassik "ağıllı saatlar"dan fərqli olaraq, ekransız və daha kompakt dizayna malikdir. Cihaz müxtəlif aksessuarlara yerləşdirilə bilir və əsasən biləkdə istifadə üçün nəzərdə tutulub. "Google"un açıqlamasına görə, yeni model "Fitbit Luxe"dan 25 faiz, "Fitbit Inspire 3"dən isə 50 faiz daha kiçikdir.

Yeni cihaz gün ərzində ürək ritmini izləyir, yuxu mərhələlərini analiz edir və istifadəçiyə "Sleep Score" təqdim edir. Bundan əlavə, cihaz "Afib" riskini göstərən nizamsız ürək ritmini aşkarlaya, HRV göstəricilərini izləyə və ümumi sağlamlıq vəziyyəti barədə məlumat verə bilir. "Fitbit Air" istifadəçinin məşqə başladığını avtomatik müəyyən edir və 140-dan çox idman növünü izləyə bilir. Qaçış, velosiped, yürüş və digər yüksək aktivlik tələb edən məşqlər dəstəklənir. Cihaz həmçinin həftəlik kardio yükü, aktivlik müddəti və bədənin hazırlıq səviyyəsi kimi göstəriciləri də təqdim edir. "Google" bu modeldə süni intellekt funksiyalarına xüsusi diqqət ayırıb. "Gemini" əsaslı "Google Health Coach" istifadəçi ilə söhbət formatında işləyərək şəxsi məlumatlara uyğun məşq və sağlamlıq tövsiyələri verir.

"Fitbit Air" üçün hazırda üç fərqli qolbaq seçimi mövcuddur: idman üçün silikon versiya, mikro tənzimlənə bilən "Performance Loop" və premium görünüşlü "Elevated Modern Band". Cihaz bir dəfə enerji doldurmaqla təxminən bir həftə işləyə bilir. Beşdəqiqəlik sürətli enerji doldurma isə birgünlük istifadə imkanı yaradır.

"Google" basketbol ulduzu Stefen Körri ilə birlikdə xüsusi "Fitbit Air Special Edition" modelini də təqdim edib. Bu versiya əlavə suya davamlı örtük və xüsusi dizayn detalları ilə fərqlənir və qiyməti 130 dollar təşkil edir. Yeni "Fitbit Air" mayın 26-da satışa çıxacaq.

## "Apple"dən yubiley sürprizi

"Apple"nin 2027-ci ildə "iPhone"un 20 illik yubileyi münasibətilə tam çərçivəsiz və düyməsiz yeni model təqdim etməyə hazırlaşır. Məlumata görə, cihazın dörd tərəfi əyri "şəlalə ekran" dizaynına sahib olacaq. Mexaniki hissələrdən tamamilə imtina ediləcəyi və yeni toxunma əsaslı düymələrin artıq mühəndislik testlərindən uğurla keçdiyi qeyd olunur.

Xüsusi çip vasitəsilə bu düymələr telefon sönülü vəziyyətdə belə toxunuşa reaksiya verəcək. Yeni "iPhone" modelində "Face ID" sensorları və ön kameranın da ekranın altına yerləşdirilməsi planlaşdırılır.

## Robot rahib

Cənubi Koreyada yerləşən buddist məbədində keçirilən mərasimdə "Qabi" adlı humanoid robot rahib kimi təqdim olunub. Dua edən, ilahilər oxuyan və buddist andları qəbul edən robot din və texnologiyanın qovuşduğu yeni mərhələnin simvolu kimi qiymətləndirilir.



Seuldakı Jogye məbədində keçirilən mərasim zamanı "Qabi" buddist rahiblərinin yürüşünə də qoşulub. Əllərini üzünün qarşısında birləşdirən robota "Özünü Buddaya həsr edəcəksənmi?" sualı verilib. O isə "Bəli, özümü həsr edəcəyəm" cavabını verib.

Cənubi Koreyanın ilk robot rahibi kimi təqdim edilən "Qabi"nin adı Koreya dilində "şəfqət" mənasını verir. Məbəd rəsmiləri bildiriblər ki, robota buddist mərhəmət anlayışını əks etdirən və tələffüzü asan olan ad seçilib.

Mərasimdə robota əməl etməli olduğu əsas prinsiplər də təqdim olunub. Bunlara digər robotlara və əşyalara zərər verməmək, insanlara itaət etmək, aldadıcı davranışlardan uzaq durmaq, enerjiyə qənaət etmək və həddindən artıq yüklənməmək kimi qaydalar daxildir.

***Hazırladı: Ülkər XASPOLADOVA, "Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə əzizi

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3811
Sifariş 629

Qiyməti 60 qəpik